

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı



№ 12 - dekabr 2019



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

QANUNÇULUQ
hüquq jurnalı
№ 12 - dekabr 2019

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**



**Qaynar xətt**
**539-76-75**

# Mündəricat



## RƏSMİ MƏLUMAT

Dünya Azərbaycanlılarına ....4
Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki ....5
“Azərbaycan Respublikasında 2020-ci ilin “Könüllülər ili” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....8
Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib ....9



## ƏDLİYYƏ XƏBƏRLƏRİ

Ədliyyə işçiləri ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad ediblər ....10
Fikrət Məmmədov. Məhkəmə hakimiyyətinin müstəqilliyinin real təminatçısı ....11
Ədliyyə fəaliyyəti dövlət başçısının tapşırıqlarına uyğun təkmilləşir ....18
Gənclər ədliyyə orqanlarının kadr korpusunun əsasını təşkil edir ....19
Məhkəmə-Hüquq Şurasının iclası keçirilib ....21
Dövlət başçısının tapşırıqlarının icrası ədliyyə orqanlarının diqqət mərkəzindədir ....22
Ədliyyə Nazirliyi Qlobal Hüquqşünaslar Forumunda təmsil olunub ....24
Beynəlxalq İnsan Hüquqları Gününə həsr olunmuş tədbirlər ....25
Məhkəmə ekspertizası sahəsində qanunda dəyişiklik edilməsi mühüm hadisədir ....29
"Mobil məhkəmə" proqram təminatı ictimaiyyətə təqdim olunub ....31
Hakimliyə namizədlərlə yazılı imtahan keçirilib ....33

## ƏDLİYYƏ XƏBƏRLƏRİ

Azərbaycan Notariat Palatası Beynəlxalq Notariat İttifaqının Konqresində təmsil olunub ........................................33
Notariuslar üçün beynəlxalq seminar keçirilib ..........................................................................................................34
Ədliyyə Akademiyasında ...........................................................................................................................................34

## YENİ QANUNLAR, FƏRMANLAR...

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 noyabr tarixli, 1694-VQD nömrəli Qanunu ..............................................39
"Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə"Azərbaycan Respublikasının 2019-cu il 19 noyabr tarixli, 1695-VQD nömrəli Qanunu ................................39
"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli, 1708-VQD nömrəli Qanunu ..............................................40
"Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanunu ..............................41
"Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 dekabr tarixli, 883 nömrəli Fərmanı .....................45
“Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 dekabr tarixli, 884 nömrəli Fərmanı .............................................................47
“Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli, 1710-VQD nömrəli Qanunu ...........................................................................48
“Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli, 1711-VQD nömrəli Qanunu .........................................................................51
“Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli, 1712-VQD nömrəli Qanunu ...........................................................................53
Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli, 1713-VQD nömrəli Qanunu ...........................................................................54
"İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli, 1714-VQD nömrəli Qanunu ...........................................................................56
"Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli, 1715-VQD nömrəli Qanunu ..............................................57
"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli, 1716-VQD nömrəli Qanunu ..............................................58

“Qanunçuluq” jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb
səhifələnmiş, “Ədliyyə Nəşriyyat Evi” MMC-də çap olunmuşdur.
“Ədliyyə Nəşriyyat Evi” MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: “Ədliyyə Nəşriyyat Evi” MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 1851 Tiraj:1100 ədəd



# Dünya Azərbaycanlılarına

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Azərbaycan xalqının milli-mənəvi bütövlüyünü təcəssüm etdirən 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İlk dəfə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə qeyd olunmuş bu tarixi gün xarici ölkələrdə məskunlaşıb yaşayan milyonlarla soydaşımızın azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birliyinin və Vətənə sədaqətinin rəmzi kimi hər il xalqımız tərəfindən ruh yüksəkliyi ilə bayram edilir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra yaxın keçmişimizin bir çox tarixi sınaq anlarında mütəşəkkil birlik və həmrəylik nümayiş etdirərək, bütün sahələrdə böyük inkişafa və uğurlara nail olmuşdur.

Bu gün Azərbaycan dövləti müstəqil daxili və xarici siyasəti, artan beynəlxalq nüfuzu, iqtisadi, siyasi və hərbi gücü ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bir çox qlobal transmilli və regional layihələrin təşəbbüskarı və iştirakçısı olan ölkəmiz dünyanın enerji təhlükəsizliyinə sanballı töhfələr verməklə, regionda mühüm tranzit və logistika mərkəzinə çevrilmişdir. Zəngin təbii resurslarımız və iqtisadi potensialımız Azərbaycanın geostrateji mövqelərinin daha da güclənməsinə etibarlı zəmin yaradır və biz bu istiqamətdə ardıcıl siyasətimizi davam etdirəcəyik.

Sosial-iqtisadi, siyasi-hüquqi sahələrdə və dövlət idarəetməsində həyata keçirilən sistemli islahatlar, milli müstəqillik ideallarına sadiq, müasir dünyagörüşlü gənclərimizin bu prosesə daha fəal cəlb edilməsi bizi inamla qarşıya qoyduğumuz inkişaf strategiyasının hədəflərinə yaxınlaşdırmaqdadır. Uğurlu siyasətin nəticəsidir ki, ölkədə möhkəm ictimai-siyasi sabitlik və milli-mənəvi həmrəylik təmin edilmiş, insanları-

mızın maddi rifahı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

Dünyanın ayrı-ayrı bölgələrində mürəkkəb etno-siyasi proseslərin, din və məzhəb qarşıdurmalarının, humanitar fəlakətlərin baş verdiyi bir vaxtda Azərbaycan sabitliyin, etnik-dini tolerantlığın və multikultural ənənələrin qorunub saxlanıldığı unikal məkandır. Müasir dövrdə insanları narahat edən sülh və təhlükəsizlik məsələlərinin, sivilizasiyalararası dialoq problemlərinin müzakirə edildiyi bir çox mötəbər beynəlxalq tədbirlərə, o cümlədən Dünya dini liderlərinin II Sammitinə, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünə ev sahibliyi etməsi və növbəti üç ildə bu Hərəkata sədrliyin Azərbaycan Respublikasına keçməsi dövlətimizin beynəlxalq nüfuzunun bariz nümunəsidir. Təsadüfi deyil ki, bu gün dünyanın ən gözəl şəhərləri sırasında yer alan paytaxtımız Bakı qlobal miqyasda sülhün və əmin-amanlığın təminatı üçün önəmli çağırışlar mərkəzinə çevrilmişdir.

Dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Azərbaycanda "Nəsimi İli"nin elan edilməsi ictimai-mədəni həyatımızın builki əlamətdar səhifələrindən biridir. "Nəsimi İli" çərçivəsində ölkəmizdə və onun hüdudlarından kənarda keçirilmiş rəngarəng tədbirlər Azərbaycan mədəniyyətinin ümumbəşəri əhəmiyyətinin daha bir nümayişi olmuşdur.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli və ərazi bütövlüyümüzün bərpası taleyüklü bir vəzifə olaraq qarşıda durur. Dövlətimizin iqtisadi-hərbi qüdrəti, beynəlxalq aləmdə getdikcə güclənən mövqelərimiz və fəal siyasi-diplomatik səylərimiz bu ağrılı problemin Azərbaycanın milli maraqlarına uyğun həlli üçün səfərbər edilmişdir. Son illər ordumuzun cəbhədə qazandığı uğurlar da göstərir ki, əzəli və əbədi Azərbaycan torpağı Qarabağın düşmən tapdağından azad ediləcəyi və tarixi ədalətin zəfər çalacağı gün uzaqda deyildir.

Azərbaycan Respublikası hazırda özünün parlaq və davamlı inkişaf dövrünü yaşayır. Dünyanın müxtəlif guşələrində məskunlaşan, lakin qəlbi daim Azərbaycan eşqi ilə döyünən soydaşlarımız da bu tarixi prosesdən kənarda deyil və onların xalqımızın tərəqqisində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində təqdirəlayiq xidmətləri yüksək qiymətləndirilməlidir.

Ümidvaram ki, harada yaşamalarından asılı olmayaraq, soydaşlarımız məskunlaşdıqları ölkələrin həyatına inteqrasiya ilə yanaşı, öz milli kimliyini, mənəvi-əxlaqi dəyərlərini, tarixi Vətənlə bağlılığı qoruyacaq, Azərbaycanın bu günü və aydın sabahı naminə əməl və əqidə birliyi, sarsılmaz həmrəylik nümayiş etdirəcəklər. Xarici ölkələrdəki çoxsaylı diaspor təşkilatlarımızın gələcəkdə də əzmkar iradə və yüksək vətənpərvərliklə bu amallar uğrunda çalışacağına, xalqımızın və dövlətimizin şərəfli adını daim uca tutacağına inanıram.

Bu yolda hamınıza uğurlar, cansağlığı, ailələrinizə xoşbəxtlik və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 25 dekabr 2019-cu il*

# Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki

Əziz həmvətənlər.

2019-cu il arxada qalır. Bu il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla icra edildi, Azərbaycan öz inkişaf yolu ilə uğurla gedib.

2019-cu ildə ölkəmiz sabitlik, əmin-amanlıq şəraitində yaşamışdır. Dünyada gedən proseslər göz qabağındadır. Dünyanın müxtəlif yerlərində, bizim yerləşdiyimiz regionda, postsovet məkanında, Avropada, Asiyada, Latın Amerikasında münaqişələr, müharibələr, qanlı toqquşmalar, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan

haqlarının tapdalanması geniş vüsət almışdır. Azərbaycan isə sabitlik məkanıdır, inkişaf məkanıdır. Bu, bizim böyük nailiyyətimizdir. Azərbaycan xalqı 2019-cu ildə təhlükəsizlik şəraitində yaşamış, qurmuş, yaratmışdır.

Bizim beynəlxalq mövqelərimiz daha da möhkəmləndi. İl ərzində 40-dan çox dövlət və hökumət başçısı Azərbaycana səfər etmişdir. Bizim ikitərəfli əlaqələrimiz böyük dərəcədə genişlənmişdir, çoxtərəfli formatda uğurla əməkdaşlıq edirik, ölkəmizdə bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir. Onların arasında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşünü qeyd etməliyəm. Zirvə Görüşü nəticəsində Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik etməyə başlamışdır. Qoşulmama Hərəkatının Zirvə Görüşü Azərbaycanda keçirilmişdir və 120 ölkənin yekdil qərarı ilə Azərbaycan bu böyük təsisata 3 il ərzində sədrlik edəcəkdir. Bu, bizə göstərilən böyük etimaddır. Bu, onu göstərir ki, dünya birliyinin böyük əksəriyyəti Azərbaycanı dəstəkləyir və bizə böyük hörmətlə yanaşır.

Bu il Bakıda Dünya dini liderlərinin Zirvə görüşü keçirilmişdir, 70 ölkədən gəlmiş dini liderlər Azərbaycanda gedən proseslərə çox müsbət qiymət vermişlər. Azərbaycan multikultural, öz ənənələrinə, milli, dini dəyərlərinə sadiq ölkə kimi özünü bu Zirvə görüşündə təqdim etdi.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Bizim prinsipial mövqeyimiz ondan ibarətdir ki, bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ tarixi əzəli Azərbaycan torpağıdır, beynəlxalq hüquq baxımından Azərbaycanın ayrılmaz hissəsidir. Bütün aparıcı beynəlxalq təşkilatlar münaqişə ilə bağlı qərarlar, qətnamələr qəbul etmişlər, öz mövqeyini ortaya qoymuşlar. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir, orada açıq-aydın göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış "Tərəfdaşlıq prioritetləri" sənədində Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərinin toxunulmazlığına böyük dəstək ifadə edilmişdir. Beləliklə, həm tarixi baxımdan, həm beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

İl ərzində münaqişə ilə bağlı Ermənistandan çox ziddiyyətli, bir-birini təkzib edən və cəfəng bəyanatlar səslənirdi. Gah deyirdilər ki, qondarma "Dağlıq Qarabağ respublikası" müstəqil dövlətdir və Azərbaycan bu dırnaqarası müstəqil dövlətlə danışıqlar aparmalıdır. Bu, yalandır, Dağlıq Qarabağ müstəqil dövlət deyil, heç bir ölkə bu qanunsuz qurumu tanımayıb, o cümlədən Ermənistan da tanımayıb və bu il ərzində danışıqlar prosesi Ermənistan və Azərbaycan arasında aparılmışdır. Beləliklə, bu cəfəng tezis tamamilə darmadağın edilmişdir. Gah deyirdilər ki, Dağlıq Qarabağ Ermənistandır və nöqtə. Belə populist bəyanatlar vermək olar, amma bu populist bəyanatların arxasında dayanmaq mümkün deyil. Bu da yalandır, Dağlıq Qarabağ Ermənistan deyil, bütün dünya bilir və mən bunu bir daha bəyan etmişəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.

Əminəm ki, bizim ardıcıl, düşünülmüş siyasət münaqişənin həllinə gətirib çıxaracaq. İqtisadi gücümüz, hərbi gücümüz, siyasi gücümüz, demoqrafik artım - bütün bu amillər bizim mövqeyimizi gücləndirir. Əminəm, gün gələcək ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq və bu istiqamətdə bu il böyük addımlar atılmışdır.

2019-cu il tarixdə dərin islahatlar ili kimi qalacaq. Siyasi islahatlar, kadr islahatları, struktur islahatları, iqtisadi, siyasi və sosial sahələrdə aparılan islahatlar bizim gücümüzü artırmışdır. Bu il iqtisadiyyat artmışdır, iqtisadiyyatın qeyri-neft sektoru 3 faizdən çox artmışdır. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu da dünya miqyasında 9-cu göstəricidir və bundan sonrakı illərdə xarici borcumuz daha da aşağı düşəcək. Bizim valyuta ehtiyatlarımız bu il 4,5 milyard dollar artmışdır və rekord həddə - 50 milyard dollara çatmışdır. Bizim valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 5 dəfədən çox artıqdır. Yəni, bu, ölkəmizin iqtisadi və maliyyə imkan-

larının dayanıqlılığını ifadə edir. Sənaye istehsalı artmışdır, xüsusilə qeyri-neft sektorunda sənaye artımı 14 faiz təşkil etmişdir. Kənd təsərrüfatında 7 faiz artım vardır. Yəni, bütün əsas istiqamətlər üzrə ölkəmizin uğurlu inkişafı reallıqdır.

Biz Beynəlxalq İnkişaf Assosiasiyasının hesabatında donor ölkəyə çevrildik. Biz indi borc alan yox, borc verən ölkəyik. Bütün bunlar düşünülmüş siyasətin təzahürüdür. Bütün bu uğurlu nailiyyətlər imkan verir ki, biz sosial sahəyə daha böyük həcmdə vəsait ayıraq və bunu etdik. Bu il də bu baxımdan çox yaddaqalan il olmuşdur. Çox geniş, hərtərəfli sosial paket təqdim edildi və bu sosial paket 4 milyon 200 min əhalini əhatə etdi. Bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 100 faiz, yəni, 2 dəfə artmışdır. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz artmışdır. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə biz bu gün MDB məkanında birinci yerdəyik. Bizim sosial siyasətimiz bir daha onu göstərir və mən dəfələrlə bəyan etmişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əminəm ki, gələcək illərdə iqtisadi imkanlarımız genişləndikcə sosial sahəyə bundan da böyük diqqət göstəriləcək.

Şəffaflıq baxımından bu il çox uğurlu il olmuşdur. Vergi və gömrük orqanları xəzinəyə plandan əlavə 1 milyard manatdan çox vəsait daxil etmişlər və əlbəttə, bu, imkan verir ki, - əminəm, bu meyil gələn il də müşahidə olunacaq, - biz daha geniş miqyasda sosial və infrastruktur layihələri icra edək.

Məcburi köçkünlərin problemləri həll olunur. Bu il 5 mindən çox məcburi köçkün ailəsi, 800-ə yaxın şəhid ailəsi üçün yeni mənzillər, evlər tikilmişdir. Zəlzələdən əziyyət çəkmiş Şamaxı, İsmayıllı, Ağsu rayonlarının sakinləri üçün minlərlə ev tikilmişdir. Bu böyük zəlzələnin fəsadlarının mütləq əksəriyyəti cəmi 10 ay ərzində aradan qaldırıldı. Bu da unikal məsələdir, çünki bu, bizim niyyətimizi, gücümüzü göstərir. Azərbaycan dövləti və rəhbərlik bir daha göstərdi ki, hər zaman vətəndaşların yanındadır.

Bu il TANAP layihəsi istismara verildi, bu, tarixi layihədir. TANAP artıq Avropa İttifaqı sərhədinə çatdırıldı. Biz bu tarixi hadisəni bu ilin noyabr ayında böyük təntənə ilə qeyd etmişik. TANAP Cənub Qaz Dəhlizinin bir hissəsidir. Cənub Qaz Dəhlizi 4 layihədən ibarətdir və onlardan 3-ü - "Şahdəniz-2", Cənubi Qafqaz Qaz Kəməri və TANAP artıq reallığa çevrildi. Dördüncü layihə - TAP, o da artıq uğurla icra edilir və bu layihənin icra səviyyəsi 90 faizi ötübdür. Biz Avropanın, Avrasiyanın energetika və nəqliyyat xəritəsini yenidən cızırıq. Biz bu layihənin təşəbbüskarı olmuşuq. Biz əsas yükü - həm maliyyə, həm texniki məsuliyyəti öz üzərimizə götürmüşük və tərəfdaşlarla birlikdə bu nəhəng və böyük əhəmiyyət kəsb edən layihəni uğurla icra edirik.

Bu il turizm sahəsində rekord il olmuşdur. Bizim apardığımız siyasət, ölkəmizin inkişafı, ölkəmizdə hökm sürən təhlükəsizlik, əmin-amanlıq, Azərbaycanda keçirdiyimiz böyük mötəbər tədbirlərin nəticəsində bu il tarixdə ilk dəfə olaraq 3 milyondan artıq turist Azərbaycana səfər etmişdir.

Bu il 10 milyonuncu vətəndaş dünyaya gəldi. Bu da böyük tarixi hadisədir. Müstəqillik dövründə bizim əhalimiz 3 milyondan çox artmışdır. Bu, bizim həm gücümüzü, həm də məsuliyyətimizi artırır. Çünki artan əhali böyük üstünlükdür, eyni zamanda, iqtisadi artım artan əhalini daim qabaqlamalıdır. Artan əhali o deməkdir ki, yeni məktəblər, yeni uşaq bağçaları, yeni xəstəxanalar tikilməlidir, yeni iş yerləri yaradılmalıdır. Beləliklə, Azərbaycanın əhalisi artdıqca gücü də artır. Bu il dünyaya gələn gözəl Mehriban balamız bizim hamımızı sevindirdi. Allah onu xoşbəxt eləsin, Allah bütün uşaqlarımızı xoşbəxt eləsin, Allah bütün balalarımızı qorusun.

Bu gün, eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Mən fürsətdən istifadə edərək, dünyada yaşayan bütün azərbaycanlılara öz səmimi salamlarımı çatdırıram. Onlar bilməlidirlər və bilirlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanıb.

Əziz həmvətənlər, mən sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

# Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI




Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır.

Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir.

Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərimizin həyat tərzinə çevrilmişdir. ASAN, "Regional İnkişaf" İctimai Birliyi, "Bir" Tələbə könüllüləri və digər könüllü hərəkatları yaranmış, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşmışdır.

Könüllülərimiz öz kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları fəaliyyətə yeni nəfəs vermiş, ölkəmizdə Avroviziya Mahnı Müsabiqəsi, I Avropa Oyunları, "Formula 1" yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynamışlar.

Bu il 5 dekabr Beynəlxalq Könüllü Günü ərəfəsində Azərbaycanda ilk dəfə keçirilmiş və bütün könüllüləri əhatə etmiş Könüllülük Həftəsi ölkəmizdə könüllülüyün yeni mərhələyə qədəm qoyduğunu və böyük potensiala malik olduğunu nümayiş etdirmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə **qərara alıram:**

1. 2020-ci il Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2020-ci ilin Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 dekabr 2019-cu il*

# Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib





**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 16 il keçir. Tarix dahi insanların ideyalarının və əməllərinin üzərində qərar tutur. Ulu öndər Heydər Əliyevin də ömür yolu, əslində, Azərbaycanın bir qərinəlik tarixidir. O tarix ki, uzun illər boyu Azərbaycan mühitinin, Azərbaycan həyatının ayrılmaz parçası olub. Onun yazdığı tarix qurtuluş, inkişaf, milli tərəqqi salnaməsinə çevrilib. Heydər Əliyev milli dövlətçiliyimizin banisi, müstəqilliyimizin rəmzidir.**

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.




Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyub.

Azərbaycanın dövlət himni səslənib.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş Nazir Əli Əsədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev və digər rəsmi şəxslər iştirak ediblər.

# Ədliyyə işçiləri ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad ediblər









**Müasir Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin müstəqilliyimizin qorunub möhkəmləndirilməsində, ölkəmizin hərtərəfli tərəqqisində misilsiz xidmətləri qədirbilən xalqımız tərəfindən daim uca tutulur, əziz xatirəsi dərin ehtiramla anılır.**

Dekabrın 12-də ulu öndər Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar ədliyyə işçiləri Fəxri xiyabanda Ümummilli Liderin abidəsini ziyarət edərək məzarı önünə gül dəstələri düzüb, dahi rəhbərə sonsuz ehtiramlarını bildiriblər.

Əbədiyaşar liderin Ədliyyə Nazirliyindəki büstü önünə tər çiçəklər qoyulub, əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Nazirlikdə keçirilmiş anma mərasimində ədliyyə naziri Fikrət Məmmədov çıxış edərək ümummilli lider Heydər Əliyevin şərəfli və mənalı ömür yolundan, zəngin dövlətçilik irsindən, xalqımız və dövlətimiz qarşısında müstəsna xidmətlərindən bəhs edib, Ulu Öndərin qurub yaratdığı müstəqil respublikamızın möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə davamlı və sabit tərəqqisini, bütün sahələrdə möhtəşəm nailiyyətlər qazanmasını vurğulayıb, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Ulu Öndərin ideyalarını yaşadan və ölkəmizi beynəlxalq ictimaiyyətə tanıdan Heydər Əliyev Fondundakı mühüm fəaliyyətini qeyd edib.

Anım günü ilə bağlı bütün struktur qurumlarda keçirilən tədbirlərdə dahi liderin yüksək dövlətçilik amallarına daim sadiq qalan ədliyyə işçiləri respublikamızın hərtərəfli inkişafı və müasirləşməsi naminə ölkə başçısının ətrafında sıx birləşərək üzərlərinə düşən vəzifələri bundan sonra da böyük məsuliyyət və şərəflə yerinə yetirəcəklərini xüsusilə vurğulayıblar.

Həmçinin, nazirliyin Heydər Əliyev muzeyində dahi şəxsiyyətin zəngin həyatından və çoxşaxəli fəaliyyətindən bəhs edən maraqlı ekspozisiyalarla tanışlıq olub, kinozalda filmlər, eləcə də foto-slaydlar nümayiş etdirilib, ehsan süfrəsi təşkil olunub.




# Məhkəmə hakimiyyətinin müstəqilliyinin real təminatçısı

**Fikrət Məmmədov,
Azərbaycan Respublikasının
ədliyyə naziri,
Məhkəmə-Hüquq Şurasının sədri
I dərəcəli dövlət ədliyyə müşaviri**

**Xalqımızın ümummilli lideri Heydər Əliyevin qurub yaratdığı və əbədilik qazandırdığı müstəqil Azərbaycan dövlətini inamla irəli aparan möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən ölkəmizin tərəqqisinə, xalqımızın rifahına hesablanmış hərtərəfli islahatlar həyata keçirilməklə müasir tariximizin şanlı səhifələri yazılır.**

Ulu öndər Heydər Əliyev 2003-cü ildə xalqa müraciətində deyirdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Və bu gün tam əminliklə söyləyə bilərik ki, möhtərəm Prezidentimiz bu inamı xalqın dəstəyi ilə ötən dövrdə atdığı uğurlu addımlarla gerçəkləşdirdi, ölkəmiz Ulu Öndərin müəyyən etdiyi və yeganə düzgün olan yol ilə gedərək möhkəm təməllər üzərində, dünyada baş verən təhlükəli proseslərə, böhranlara baxmayaraq, davamlı inkişaf etdi, xalqımızın təhlükəsizlik, sabitlik şəraitində yaşayışı təmin edildi, Azərbaycan dünyada hörmətlə qəbul edilən və dəstəklənən, yüksək nüfuza sahib ölkəyə, etibarlı tərəfdaşa və regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrildi.

Bu dövrdə elə bir sahə olmayıb ki, orada islahatlar aparılmasın və inkişaf müşahidə edilməsin. Son 16 ildə ümumi daxili məhsul 3 dəfədən çox artdı, işsizliyin səviyyəsi 5 faizədək endi, yoxsulluq təxminən 10 dəfəyədək azaldı. Valyuta ehtiyatlarımız 50 milyard dollara çatdı. Ölkəmizin

iqtisadiyyatına 250 milyard dollardan çox sərmayə qoyuldu.

Prezident İlham Əliyev güclü siyasi iradəsi, qətiyyətli və prinsipial mövqeyi ilə Azərbaycanı dünyada inkişaf edən dövlətlər sırasına çıxardı. Bu gün respublikamız iqtisadi rəqabət qabiliyyətliliyinə görə dünyanın öncül, ən islahatçı ölkəsi, eyni zamanda irimiqyaslı layihələrin təşəbbüskarı və uğurlu icraçısı kimi tanınır, tolerantlıq və multikulturalizm məkanı kimi nümunə olması etiraf edilir, dövlət xidmətlərinin ictimai modeli olan və təcrübəsi dünyada yayılan ASAN brendinin müəllifidir.

Dövlətimizin başçısının həyata keçirdiyi çoxşaxəli islahatlara dəyərli töhfələr verən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan çoxsaylı layihələr, həyata keçirilən tədbirlər öz müsbət nəticələrini verməklə xalq-iqtidar birliyini daha da gücləndirir.

Ötən dövrdə demokratik inkişaf yolu ilə gedən Azərbaycanda qanunun aliliyini, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasını siyasətinin ən mühüm prioriteti kimi müəyyən edən Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, bizim siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır və əsas vəzifəmiz insanlara layiqli xidmət etməkdir. Cənab Prezident xalqa xidmətləri ilə hər bir vətəndaşın prezidenti olduğunu sübut etməklə hər bir dövlət məmuruna təvazökarlıq, saflıq və vətənə xidmət nümunəsi göstərir.

Ölkə başçısının ictimaiyyəti hər zaman dövlət idarəetməsində fəal iştiraka, ictimai nəzarətə çağırışı, korrupsiyaya qarşı mübarizədə sərt mövqeyi, vətəndaşlara xidmət sahəsində şəffaf və innovativ metodların geniş və səmərəli tətbiqinə üstünlük verməsi cəmiyyətimiz tərəfindən daim dəstəklənir. Bu istiqamətdə mühüm dövlət proqramları və milli fəaliyyət planları qəbul olunaraq həyata keçirilir, konkret əməli tədbirlər görülür.

Respublikamızın hərtərəfli inkişafına adekvat olaraq aparılan məhkəmə-hüquq sistemində mütərəqqi islahatların müəllifi də məhz möhtərəm Prezidentimiz cənab İlham Əliyevdir.

Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatları ötən dövrdə dövlət başçısı tərəfindən müasir çağırışlara uyğun uğurla inkişaf etdirildi.

Prezident İlham Əliyev bütün məsələlərdə olduğu kimi, məhkəmə-hüquq sahəsində də novatorluq və islahatçı yanaşmalar tətbiq etdi, dünyada mövcud olan ən mütərəqqi təcrübələrə əsaslanaraq məhkəmə sisteminin təkmilləşdirilməsinin respublikamızın hərtərəfli inkişafı, demokratik, hüquqi dövlətin möhkəmlənməsi üçün başlıca şərt olduğunu vurğuladı. Cənab İlham Əliyev ölkə Prezidenti kimi fəaliyyətə başladığı ilk günlərdən məhkəmələrin insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı qorunduğu, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin həyata keçirildiyi instansiyaya çevrilməsini prioritet hesab etdi.

Məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısı olaraq ötən dövrdə dövlət başçısı tərəfindən məhkəmə sisteminin müasirləşdirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsi, məhkəmələrə əlçatanlığın və müraciət imkanlarının asanlaşdırılması, şəffaflığın artırılması, sui-istifadə, süründürməçilik hallarının və digər nöqsanların aradan qaldırılması, yeni informasiya texnologiyalarının tətbiqi ilə bağlı mütərəqqi addımlar atıldı.

Sözsüz ki, bu addımlar ölkə başçısının qəti siyasi iradəsinə, onun islahatçılığına əsaslanır. Təsadüfi deyil ki, həyata keçirdiyi islahatların miqyasına görə Azərbaycan Prezidentinin adı dünyanın ən islahatçı liderləri sırasında çəkilir və dövlət başçısının islahatlara meyilliliyinə görə nüfuzlu beynəlxalq reytinq agentliklərinin hesabatlarında ölkəmiz dünyada 5-ci yerə yüksəlib.

İslahat o zaman uğurlu nəticə verir ki, onun həyata keçirilməsi zəruriliyi cəmiyyətin inkişaf tempinə, dövrün tələblərinə uyğun olsun. Bu amili nəzərə alan dövlət başçısının ötən dövrdə imzaladığı çoxsaylı mühüm fərman və sərəncamlar məhkəmə-hüquq sisteminin beynəlxalq standartlara uyğun təkmilləşməsinə və müasirləşməsinə, məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmlənməsinə xidmət etdi.

Ölkə başçının ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı tapşırıqlarının icrası çərçivəsində 2004-cü ildə Azərbaycan-Avropa Şurası birgə işçi qrupu yaradılaraq bu sahədə mühüm qanun layihələri hazırlandı və nüfuzlu beynəlxalq ekspertlərin iştirakı ilə Avropa Şurasında ekspertizadan keçirildi. "Məhkəmələr və hakimlər haqqında" Qanuna əsaslı dəyişikliklər edildi, "Məhkəmə-Hüquq Şurası haqqında" yeni

Qanun qəbul olundu. 2005-ci ilin fevralında ölkəmizdə yeni təsisat - məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası fəaliyyətə başladı.

Elə ilk gündən ədalət mühakiməsinə əlçatanlığı asanlaşdırmaq, məhkəmələrə ictimai etimadı və inamı yüksəltmək naminə məhkəmə sisteminin müasirləşdirilməsi, hakimlərin ən şəffaf prosedurlarla seçiminin aparılması, tədrisinin müasir tələblər səviyyəsində qurulması və peşəkarlığının artırılması kimi vacib məsələlər Məhkəmə-Hüquq Şurasının hədəfləri sırasına daxil oldu.

Məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin olunması baxımından Şuranın səlahiyyətləri davamlı olaraq genişləndirildi, məhkəmə sistemi ilə bağlı bütün məsələlər, o cümlədən hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, iş yerinin dəyişdirilməsi və vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb olunması və həvəsləndirilməsi onun müstəsna səlahiyyətlərinə aid edildi.

Dövlət xidmətlərinin vətəndaşlar üçün hər zaman əlçatan və asan olmasını, insanların dövlət orqanlarına daha rahat müraciət etmələrini vacib sayan Prezident İlham Əliyev məhkəmə-hüquq sahəsində də bu məsələyə xüsusi diqqət yetirdi. Məhkəməyə əlçatanlığın məhkəmə sisteminin quruluşundan, xüsusilə ixtisaslaşdırılmış və regional məhkəmələrin fəaliyyətindən çox dərəcədə asılı olduğunu nəzərə alaraq məhkəmə sisteminin müasirləşdirilməsi ilə bağlı imzaladığı 19 yanvar 2006-cı il və 15 iyul 2010-cu il tarixli fərmanlarla bu sahədə institusional islahatlar aparıldı.

Belə ki, regionların sosial-iqtisadi inkişafı şəraitində ölkə başçısının tapşırıqlarına uyğun olaraq bölgələrdə yaşayan insanların məhkəmələrə çatımlığının yaxşılaşdırılması məqsədilə 2006-cı ildə respublika apellyasiya və iqtisad məhkəmələrinin əvəzinə 6 regional apellyasiya, habelə əlavə 3 yerli iqtisad məhkəməsi təşkil edildi. 2010-cu ildə isə respublika üzrə vahid olan ağır cinayətlər məhkəməsinin əvəzində bölgələrdə yeni regional ağır cinayət məhkəmələri yaradılaraq onların sayı ümumilikdə 5 oldu, hərbi məhkəmə sistemi təkmilləşdirildi.

Eyni zamanda məhkəmə-hüquq sistemimizin inkişafında ən mühüm hadisələrdən biri kimi ilk dəfə olaraq inzibati ədliyyə institutu təsbit edildi. 2011-ci ildən ölkəmizin 7 bölgəsində dövlət orqanları tərəfindən insan haqlarının pozulmasının qarşısının alınmasında mühüm rol oynayan yeni inzibati məhkəmələr fəaliyyətə başladı.

İslahatlar həyata keçirilərkən Naxçıvan Muxtar Respublikasının blokada vəziyyətində olması nəzərə alınaraq əhali üçün əlverişli şəraitin yaradılması məqsədilə orada da yeni məhkəmələr təsis olundu, Muxtar Respublikanın Ali Məhkəməsi tam apellyasiya instansiyası xarakteri aldı.

Dövlət başçısının rəhbərliyi ilə iqtisadi cəhətdən sürətlə inkişaf edən ölkəmizdə mülki dövriyyənin genişlənməsi, habelə əhalinin məhkəmələrə çatımlığının asanlaşdırlması üzrə görülən ardıcıl tədbirlər məhkəmələrə daxil olan işlərin sayına da əsaslı təsir göstərdi və məhkəmələrdə baxılan mülki işlərin sayı ilbəil çoxaldı.

İşlərin baxılması keyfiyyətinə mənfi təsir göstərən amillərdən biri kimi hakimlərin iş yükünün çox olması nəzərə alınaraq, ölkə Prezidenti tərəfindən hakimlərin sayı 2 dəfə artırılaraq 600-ə çatdırıldı, məhkəmə aparatı işçilərinin sayı 75 faiz artırıldı, hər bir hakimə köməkçi ştatı ayrıldı.

Vakant hakim ştatlarının komplektləşdirilməsi məqsədilə ölkəmizdə hakimliyə namizədlərin seçimi prosesi əsaslı surətdə təkmilləşdirildi, onların Avropada ən mütərəqqi və şəffaf üsullarla seçilməsi qaydası təsbit olundu, ayrıca müstəqil qurum - Hakimlərin Seçki Komitəsi yaradıldı.

Tətbiq olunan şəffaf seçim proseduru sayəsində ölkəmizin məhkəmə korpusunun 70 faizdən çoxu yeni nəsil hakimlərlə təzələndi. Bu sahədə Azərbaycanın müsbət təcrübəsini öyrənən Avropa Şurası və Avropa İttifaqı onu yaxşı praktikaların maraqlı modeli kimi dəyərləndirərək digər dövlətlərə ondan bəhrələnməyi tövsiyə etdi.

Bütün bu tədbirlər insanların məhkəmələrə müraciət imkanlarının genişlənməsinə, hakimlərin iş yükünün, süründürməçilik və digər pozuntuların azalmasına, işlərə daha keyfiyyətlə baxılmasına, insanların məhkəmə hakimiyyətinə inamının artırılmasına şərait yaratdı, habelə bölgələrdə digər hüquq institutlarının inkişafına əsaslı təkan verdi.

"Şəffaflıq hər bir ölkənin gələcəyini müəyyən edən məsələdir. Çünki şəffaflıq olmadan biz heç bir islahatı apara bilmərik", - deyən Prezident İlham Əliyev cəmiyyət həyatı-

nın bütün sahələrində müasir informasiya-kommunikasiya texnologiyalarının, şəffaf və innovativ metodların daha geniş tətbiqinə çox böyük önəm verir.

Dövlət başçısı həyata keçirdiyi islahatlar çərçivəsində məhkəmə fəaliyyətinin elektronlaşdırılması və müxtəlif texnoloji yeniliklərin tətbiqi ilə bağlı innovativ addım atdı - "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında 13 fevral 2014-cü il tarixli Sərəncamı bu sahədə strateji prioritetləri müəyyən etməklə inqilabi təkamülün əsasını qoydu.

Yeni sistem insanlara məhkəməyə gəlmədən, elektron formada müraciət etmək, proses barədə məlumatları elektron daşıyıcıda dərhal almaq, habelə məhkəmə proseslərini audio-video və digər texniki vasitələrlə qeydə almaq, proses iştirakçıları üçün məhkəmənin gedişi, qərarlar və onların icra vəziyyəti və s. məlumatları əks etdirən elektron "şəxsi kabinetə" malik olmaq imkanı yaratdı.

Artıq məhkəmələrdə elektron sənəd dövriyyəsi, işlərin elektron qaydada bölgüsü, elektron idarəetmə və "Elektron-bildiriş" informasiya proqramları, proseslərin elektron qeydiyyatı sistemi tətbiq olunur.

Eyni zamanda hüquqi xidmətin yaxşılaşdırılması məqsədilə məhkəmə sisteminin vahid internet portalı (www.courts.gov.az) təşkil edildi, hər bir məhkəmə və hakim barədə ətraflı məlumatlar həmin portalda yerləşdirildi. Portal vasitəsilə vətəndaşlara məhkəmələrə onlayn rejimində müraciət etmək və cavab almaq, iddia ərizələri və digər məhkəmə sənədlərinin nümunələrini əldə etmək, qəbul günləri və s. barədə ətraflı məlumat almaq imkanı yaradıldı.

"Elektron məhkəmə" informasiya sisteminin yaradılmasını çox ciddi islahat adlandıran dövlətimizin başçısı onun tətbiqinin şəffaflığı təmin etməklə məhkəmə sistemini daha da müasir və daha da böyük inama malik olan sistemə çevirəcəyini vurğuladı.

Ötən dövrdə həmçinin, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında məhkəmə infrastrukturunun müasirləşdirilməsinin əhəmiyyəti nəzərə alınaraq məhkəmələrdə əsaslı təmir və yenidənqurma işləri aparıldı, iş şəraiti müasir tələblərə uyğunlaşdırıldı, dövlət başçısının tapşırığı ilə paytaxtda və bölgələrdə yeni məhkəmə binaları və kompleksləri inşa olunaraq istifadəyə verildi, Ali Məhkəmə üçün məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun, xüsusi memarlıq üslubu ilə yeni əzəmətli binanın inşa edilməsi ölkəmizin hüquq həyatında əlamətdar hadisələrdən oldu.

Həmçinin, dövlət başçısının tapşırıqları və dəstəyi ilə Dünya Bankı ilə birgə "Ədliyyə sisteminin müasirləşdirilməsi" və "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihələri uğurla həyata keçirilərək bu sahədə ardıcıl tədbirlər görüldü.

Məhkəmə hakimiyyətinə verdiyi müstəsna əhəmiyyətin təzahürü olaraq Prezident İlham Əliyevin bir çox yeni məhkəmə bina və komplekslərinin açılışlarında şəxsən iştirakı bir daha təsdiq edir ki, dövlət başçısı hər zaman verdiyi tapşırıqların icrası ilə yerində maraqlanır, görülən işlərə bilavasitə nəzarət edir.

Qeyd olunmalıdır ki, ölkə Prezidentinin rəhbərliyi ilə bu sahədə həyata keçirilən islahatlar beynəlxalq aləmdə təqdir olunur və təsadüfi deyil ki, Dünya Bankı Azərbaycanda ədliyyə sahəsindəki layihəni ən uğurlu layihələrindən biri kimi qiymətləndirərək "Vətəndaşlara daha yüksək keyfiyyətli xidmətlərin göstərilməsi üçün innovativ üsulların yaradılması və tətbiqi" nominasiyalarının qalibi elan etdi.

Həmçinin, ölkəmiz Avropa Şurasının ədalət mühakiməsinə dair müsabiqəsində "Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab" adlı layihə ilə iştirak edərək məhkəmə sistemindəki nailiyyətlərinə görə "Ədliyyənin Kristal Tərəzisi" mükafatına layiq bilindi.

Dünya təcrübəsi göstərir ki, bu sahədə islahatlar davam edən bir prosesdir. Hər bir ölkənin inkişafında məhkəmə-hüquq sisteminin təkmilləşməsinin çox böyük əhəmiyyət kəsb etdiyini vurğulayan dövlətimizin başçısının qeyd etdiyi kimi, bu proses hətta inkişaf etmiş ölkələrdə də daim gedir. Yəni, bu prosesin əvvəli var, amma sonu yoxdur.

Məhkəmə-hüquq sistemində islahatlar 2019-cu ildə müasir çağırışlara uyğun olaraq yeni mərhələyə keçdi. Belə ki, cari ildə bütün sahələrdə, o cümlədən məhkəmə-hüquq sistemində mütərəqqi islahatların daha intensiv aparılacağı və yeni mərhələyə keçəcəyi anonsunu verən möhtərəm Prezidentimiz aprelin 3-də "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzalayaraq

onun icrasının bu sahədə ciddi dönüşə səbəb olacağını vurğuladı.

Bu, dövlətimizin başçısının cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılmasına, vətəndaşların hüquqlarının məhkəmə müdafiəsinin gücləndirilməsinə, məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmləndirilməsinə verdiyi müstəsna əhəmiyyətin növbəti təzahürüdür.

Ölkə Prezidentinin məhkəmə sisteminə qayğısı, bu sahədə atdığı bütün addımlar, mühüm qərarlar əhali tərəfindən yüksək qiymətləndirilir və bu dəstək vətəndaşların dövlət başçısına ünvanladığı məktub və müraciətlərdə də aydın ifadə olunur.

Ədliyyə və məhkəmə sistemi üçün mühüm "yol xəritəsi" olan Fərmanın aidiyyəti qurumlarla birgə təxirəsalınmadan icrasına başlanılaraq qısa müddətdə kompleks qanunvericilik, institusional və praktiki tədbirlər görüldü.

İlk növbədə, kommersiya məhkəmələrinin təşkili, cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması, məhkəmə qərarlarının icrası işinin və məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən alternativ - özəl ekspertizanın tətbiqi, vahid məhkəmə təcrübəsinin formalaşdırılması və digər məsələlərlə bağlı qabaqcıl beynəlxalq təcrübə öyrənilməklə, həmçinin ictimaiyyətin təklifləri və rəyləri nəzərə alınmaqla 40-dək normativ aktın layihəsi işlənib hazırlandı.

Dövlət başçısının qanunvericilik təşəbbüsü ilə ədliyyə və məhkəmə sisteminin daha səmərəli fəaliyyətinin təmin edilməsində mühüm rol oynayan bir sıra yeni qanunlar qəbul edildi.

Bu ilin iyul ayında qəbul olunmuş ilk qanunvericilik aktları paketi islahatların institusional komponentini əhatə etdi. Sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən və çevik baxılmasını təmin etmək məqsədilə ölkə Prezidentinin 19 iyul 2019-cu il tarixli Sərəncamı ilə yeni regional kommersiya və inzibati məhkəmələr yaradıldı.

2020-ci il yanvarın 1-dən fəaliyyətə başlayacaq həmin məhkəmələrin ərazi yurisdiksiyası, aparılmış təhlillərə uyğun olaraq hakim və aparat işçilərinin ştat sayı müəyyən edildi, infrastruktur, maddi-texniki təminatla bağlı zəruri tədbirlər görüldü.

Bundan əlavə, hakimlərin sosial müdafiəsi əhəmiyyətli dərəcədə gücləndirildi, məhkəmə fəaliyyətinin təminatı yaxşılaşdırıldı.

Dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında ikinci qanun layihələri paketi isə bu günlərdə qəbul olundu. 2020-ci il martın 1-dən qüvvəyə minəcək həmin dəyişikliklər məhkəmə-hüquq islahatlarının iki mühüm istiqamətini əhatə edir.

Məhkəmələrdə hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini və ədalət mühakiməsi həyata keçirilərkən maddi və prosessual hüquq normalarının eyni cür tətbiq edilməsini təmin etmək məqsədilə vahid məhkəmə təcrübəsinin formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, bu günədək vahid məhkəmə təcrübəsini formalaşdırmağa imkan verən mexanizmlər qanunvericilikdə kifayət qədər tənzimlənmirdi.

Bununla əlaqədar, yeni qanunvericiliyə əsasən Ali Məhkəmənin vahid məhkəmə təcrübəsi formalaşdırmaq vəzifəsi "Məhkəmələr və hakimlər haqqında" Qanunda birbaşa təsbit edilir, Ali Məhkəmə Plenumunun məhkəmə təcrübəsinə dair verdiyi izahların əhəmiyyəti artırılır, həmin izahlardan fərqli qərarların qəbul edilməsinin konkret hüquqi nəticələri müəyyən edilir.

Bundan əlavə, yeni qanunvericilikdə məhkəmə təcrübəsinin ümumiləşdirilməsi nəticəsində maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanlar müəyyən edildikdə, Ali Məhkəmənin Plenumunun müvafiq izahlar verməsi, sonra bu sahədə məhkəmə fəaliyyətinin monitorinqinin təşkil edilməsi və monitorinq zamanı nöqsanlar aşkar edildiyi təqdirdə bunun hakimlər üçün müvafiq məsuliyyət yaratması təsbit edilir.

Qanunvericilik paketinin digər mühüm istiqaməti keyfiyyətli məhkəmə xidmətlərinin göstərilməsində, ədalətli məhkəmə araşdırılması hüququnun təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən məhkəmə ekspertizası fəaliyyətini əhatə edir. Mühüm yenilikləri nəzərdə tutan bu dəyişikliklər nəticəsində məhkəmə ekspertizasını həyata keçirmək, habelə ekspertizanın keçirilməsini təyin (sifariş) etmək hüququ olan subyektlərin dairəsi genişləndirilir. Təcrübədə bir sıra hallarda haqlı şikayətlərə səbəb olan ekspertizanın keçirilməsi və ekspert rəyinin ve-

rilməsi müddətləri dəqiqləşdirilir.

Dəyişikliklər nəticəsində ölkəmizdə ilk dəfə tətbiq edilən özəl ekspertiza institutu bütün fiziki və ya hüquqi şəxslərə, həmin şəxslərin vəkilləri və nümayəndələrinə imkan verəcək ki, onlar özəl məhkəmə ekspertləri ilə bağlanan müqavilə əsasında məhkəmə ekspertizasını sifariş etsinlər.

Qeyd etmək lazımdır ki, özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxslər qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verdikləri təqdirdə Ədliyyə Nazirliyi tərəfindən onlara şəhadətnamə veriləcək və reyestrləri aparılacaq. Şəxs yalnız şəhadətnamə aldıqdan və barəsində məlumat Reyestrə daxil edildikdən sonra məhkəmə eksperti qismində fəaliyyət göstərə biləcəkdir.

Fərmanın icrası çərçivəsində, həmçinin, icra sahəsində fəaliyyəti tənzimləyən normativ aktların sistemləşdirilməsi məqsədilə ilk dəfə olaraq İcra Məcəlləsinin layihəsi işlənib hazırlandı. "Elektron icra" informasiya sisteminin tətbiqinin genişləndirilməsi, süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına dair konkret addımlar atıldı.

İcranın alternativ mexanizmləri, o cümlədən özəl icra institutu ilə bağlı müxtəlif dövlətlərin təcrübəsi ilə yerində tanış olundu, ölkəmizdə onun pilot qaydada tətbiqi məqsədəmüvafiq bilinərək müvafiq hazırlıq işləri görülür.

Ötən dövrdə hakimlərin sayının artırılmasına baxmayaraq ölkəmizdə onların əhaliyə nisbətdə sayı Avropa dövlətləri ilə müqayisədə hələ də az olmaqda qalırdı - bəzi Avropa dövlətlərində hər 100 min nəfərə 20-dən artıq hakim düşdüyü halda Azərbaycanda bu göstərici cəmi 6 təşkil edirdi.

Məhkəmələrdə ağır iş yükünün olması və hakimlərin sayının kifayət qədər olmaması, təbii ki, işlərin baxılma müddətinə və keyfiyyətə mənfi təsir göstərir. Bu baxımdan dövlət başçısı tərəfindən Fərmanla hakimlərin sayı mövcud korpusun üçdə biri qədər - 200 vahid artırıldı və yeni ayrılan ştatların doldurulması məqsədilə Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin seçim qaydası təkmilləşdirilərək bu prosesdə çeviklik artırıldı. İmtahanların müasir texnologiyalar tətbiq edilməklə keçirilməsi, hər bir namizədin sualları kompüter vasitəsilə, fərdi qaydada cavablandırması və nəticələrin dərhal elan olunması təsbit edildi.

Cari ildə hakimliyə namizədlərin sənədlərinin qəbulu davamlı xarakter alaraq sənədlərini təqdim etmiş namizədlərlə qeyd olunan üsullarla test və yazılı imtahanlar keçirildi. Hər iki mərhələdən uğur qazanmış 81 nəfər namizədlə hazırda Hakimlərin Seçki Komitəsi tərəfindən şifahi imtahanlar keçirilir. Növbəti test imtahanında uğur qazanmış 108 nəfər namizədlə isə bu ərəfədə yazılı imtahan keçirilib.

Şübhəsiz ki, hakim ştatlarının komplektləşdirilməsi məhkəmələrdə iş yükünün azalmasına, işlərə keyfiyyətlə baxılmasına xidmət edəcəkdir.

Bununla yanaşı, hakimlərin iş yükünün digər vasitələrlə azaldılması diqqətdə saxlanılaraq cari ildən qanunvericiliyə edilmiş dəyişikliklərlə əlaqədar məhkəmə baxışının tezliyinin təmin olunması məqsədilə kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat proseduru təsbit olundu, iqtisadi işlər üzrə icraatın yalnız elektron qaydada - "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə aparılması və məhkəmə proseslərinin fasiləsiz audio-video yazılışı təmin edildi, mübahisəsiz pul və əmlak tələbləri ilə bağlı işlərin məhkəmədən kənar, elektron qaydada notariusun icra qeydi ilə asan həlli imkanı yaradıldı.

Fərmanın icrası çərçivəsində mübahisələrin məhkəmədən kənar həllində mühüm vasitə olan mediasiyanın respublikamızda tətbiqi ilə bağlı Avropa İttifaqı ilə birgə yeni layihənin icrasına başlanıldı, növbəti ildən tətbiq ediləcək "Mediasiya haqqında" Qanunun implementasiyası ilə əlaqədar nazirlik tərəfindən çoxsaylı normativ sənəd layihələri hazırlanaraq qəbul olundu. Həmçinin, ölkəmizdə səmərəli beynəlxalq arbitraj prosedurlarının təşviqi ilə bağlı Avropa İttifaqı ilə birgə "Biznes mühitinin inkişafı ilə əlaqədar normativ-hüquqi bazanın dəstəklənməsi" layihəsi çərçivəsində yerli və beynəlxalq qanunvericilik təhlil olundu, qabaqcıl təcrübələr nəzərə alınmaqla yol xəritəsi hazırlandı.

Bundan əlavə, hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinə müdaxilələrin və digər neqativ halların aradan qaldırılması və s. məsələlər üzrə mühüm qanunvericilik və institusional tədbirlər həyata keçirildi, o cümlədən Fərmanla qarşıya qoyulmuş məsələlərin icrası

məqsədilə Məhkəmə-Hüquq Şurasında "qaynar xətt" və monitorinq sektorları yaradıldı.

Ədliyyə Nazirliyi və Məhkəmə-Hüquq Şurası tərəfindən Fərmandan sonrakı dövrdə 50-ə yaxın məhkəmədə monitorinqlər aparıldı, yol verilən pozuntular 100-dən artıq hakimin və məhkəmə sədrinin diqqətinə çatdırıldı, daha kobud pozuntularla bağlı isə 39 hakim barəsində intizam icraatlarına baxılaraq onlardan 6-sı tutduğu vəzifədən azad olundu, 2 nəfərin hakimlik səlahiyyətlərinə vaxtından əvvəl xitam verildi, digərləri barəsində isə müxtəlif intizam tənbehi tədbirləri görüldü.

Dövlət başçısının tapşırıqlarına uyğun olaraq "Elektron məhkəmə" informasiya sisteminin respublikanın bütün ərazisində əhatə olunması və sistemin bütövlükdə ahəngdar işləməsinin təmin edilməsi, funksionallığının artırılması üzrə əməli tədbirlər görüldü, o cümlədən məhkəməyə əlçatanlığın asanlaşdırılması məqsədilə kompüterə qoşulmadan məlumatları dərhal əldə etməyə, prosesdə mobil qaydada iştirak etməyə və s. imkan verən "Mobil məhkəmə" proqram təminatı işlənib hazırlandı.

Ölkəmizdə rəqəmsal transformasiyanın daha bir nümunəsi olaraq, yaradılan "Mobil məhkəmə"nin dünyada tətbiqinə çox az rast gəlinir və demək olar ki, Azərbaycan bu sahədə birincilər sırasındadır.

Ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması yolunda növbəti mühüm addım və məhkəmə istifadəçiləri üçün çox faydalı hədiyyə olan "Mobil məhkəmə" məhz bu gündən - 24 dekabr tarixindən istifadəyə verilir. Artıq bu tarixdən etibarən vətəndaşlar "Elektron məhkəmə" informasiya sisteminin imkanlarından mobil qaydada istifadə edəcək və faydalana biləcəklər. Bu məqsədlə "Fairmont" otelində millət vəkillərinin, hakim, prokuror və vəkillərin, habelə vətəndaş cəmiyyəti və çoxsaylı KİV nümayəndələrinin iştirakı ilə həmin proqram təminatının ictimaiyyətə geniş təqdimatı keçirilir.

Ölkə Prezidentinin Fərmanda verdiyi mühüm tapşırıqlardan biri məhkəmə hakimiyyətinin nüfuzunun artırılması, cəmiyyətdə məhkəmələrə ictimai etimadın möhkəmlənməsi, şəffaflığın artırılması ilə bağlıdır. Bu sahədə görülən işlər çərçivəsində məhkəmə fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması, o cümlədən kütləvi informasiya vasitələri ilə qarşılıqlı əlaqələrin genişləndirilməsi məqsədilə məhkəmələrdə media ilə işləyəcək hakimlər müəyyən edildi. Bununla bağlı Məhkəmə-Hüquq Şurası və Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə çoxsaylı KİV rəhbərləri və nümayəndələri ilə görüş keçirilərək məhkəmələrlə media orqanları arasında səmərəli əməkdaşlıq, məhkəmə fəaliyyəti barədə əhalinin mütəmadi, dolğun və düzgün məlumatlandırılması məsələləri müzakirə olundu, həmin spiker-hakimlər KİV təmsilçilərinə təqdim edildi.

Fərmanın icrası üzrə görülən işlər, bütövlükdə məhkəmə-hüquq sistemində aparılan islahatlar və tətbiq olunan yeniliklər beynəlxalq aləmdə təqdir olunur, o cümlədən Dünya Bankının "Doing Business 2020" hesabatında yeni ixtisaslaşmış məhkəmələrin yaradılması, məhkəmə fəaliyyətinin rəqəmsallaşdırılması, elektron məhkəmə sisteminin təkmilləşdirilməsi, mediasiya institutunun tətbiqi üzrə görülən tədbirlər müsbət nəticələr kimi əks olunub.

Ölkə başçısının "İslahatlar təkmilləşmə, yeni dövrə uyğunlaşma, tərəqqi deməkdir" fikrinə əsaslanaraq deyə bilərik ki, məhkəmə-hüquq sistemi dövlətimizin başçısının qayğısı ilə daim təkmilləşir və inkişaf edir. Ölkəmizdə həyata keçirilən hərtərəfli, o cümlədən məhkəmə-hüquq islahatının aparılmasında dövlətimizin başçısının göstərdiyi güclü siyasi iradə, islahatlara verdiyi müstəsna əhəmiyyət və dəstək hər birimizi üzərimizə düşən vəzifələri bundan sonra da böyük məsuliyyət və şərəflə yerinə yetirməyə səfərbər edir.

Fürsətdən istifadə edib, doğum günü, qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə dövlətimizin başçısını, Birinci vitse-prezident Mehriban xanım Əliyevanı və onların ölkəmizin hərtərəfli tərəqqisinə dəyərli töhfələr verən bütün ailə üzvlərini ədliyyə işçiləri adından təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik və səadət, doğma Vətənimizin daha da çiçəklənməsi naminə yorulmaz fəaliyyətlərində uğurlar arzulayırıq. Qəti əminik ki, qədirbilən xalqımız dövlətimizin başçısı cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə hələ uzun illər yeni-yeni möhtəşəm qələbələrin şahidi olacaq, müstəqil dövlətimiz gündən-günə inkişaf edərək daha da möhkəmlənəcəkdir.

# Ədliyyə fəaliyyəti dövlət başçısının tapşırıqlarına uyğun təkmilləşir





**Dekabrın 28-də Ədliyyə Nazirliyinin kollegiya iclası keçirilib. Çıxış edən ədliyyə naziri Fikrət Məmmədov bildirib ki, 2019-cu il respublikamızın hərtərəfli tərəqqisi və xalqımızın rifahı naminə uğurlu islahatlar ili kimi yadda qalır. Ölkəmiz ulu öndər Heydər Əliyevin yolu ilə gedərək möhtərəm Prezidentimiz cənab İlham Əliyevin güclü siyasi iradəsi və yorulmaz fəaliyyəti sayəsində daha da inkişaf edir və möhkəmlənir.**

Kollegiyada nazirliyin əsas fəaliyyət istiqamətləri üzrə cari ildə görülmüş işlərin nəticələri və qarşıda duran vəzifələr müzakirə olunub.

Nazir və digər natiqlər dövlət başçısının həyata keçirdiyi çoxşaxəli islahatların, həmçinin ədliyyə və məhkəmə sistemini əhatə etdiyini vurğulayaraq, cari ildə ədliyyə fəaliyyətinin müasirləşdirilməsi, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi, məhkəmə qərarlarının icrası, istintaq, probasiya və penitensiar sahədə işin səmərəliliyinin artırılması, innovasiyaların və rəqəmsal texnologiyaların tətbiqi üzrə görülən tədbirlər barədə məlumat veriblər.

Bildirilib ki, ədliyyə və məhkəmə sisteminin inkişafı ilə bağlı ölkə Prezidentinin imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı müstəsna əhəmiyyət kəsb edir. Bu sahədə mühüm "yol xəritəsi" olan Fərmanın icrası çərçivəsində ötən dövrdə kompleks tədbirlər həyata keçirilib, ədliyyə və məhkəmə fəaliyyətini tənzimləyən 40-dək normativ aktın layihələri işlənib hazırlanıb və dövlət başçısının qanunvericilik təşəbbüsü ilə artıq bir sıra yeni qanunlar qəbul edilib.

Sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən və çevik baxılmasını təmin etmək məqsədilə yeni regional kommersiya və inzibati məhkəmələr yaradılıb. Həmin məhkəmələrin ərazi yurisdiksiyası, aparılmış təhlillərə uyğun olaraq hakim və aparat işçilərinin ştat sayı müəyyən edilib, infrastruktur, maddi-texniki təminatla bağlı zəruri tədbirlər görülüb.

Bundan əlavə, hakimlərin sosial müdafiəsi əhəmiyyətli dərəcədə gücləndirilib, məhkəmə fəaliyyətinin təminatı yaxşılaşdırılıb.

Eyni zamanda, ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılmasına xidmət edən "Elektron məhkəmə" və "Elektron icra" informasiya sistemlərinin ölkəmizin bütün ərazisi üzrə genişləndirilməsi və bütövlükdə ahəng işlənilməsinin təmin olunması üzrə işlər davam etdirilib, məhkəmə istifadəçiləri üçün faydalı olan "Mobil məhkəmə" proqram təminatının ictimai təqdimatı keçirilərək yenicə istifadəyə verilib. Ədliyyə sahəsində də xidmətlərin məsafədən göstərilməsinə imkan verən elektron ədliyyə köşkünün, "Mobil notariat"ın funksionallığı artırılıb və ötən bir ay ərzində ondan istifadə edənlərin sayı artıq 30 mini ötüb.

Kollegiyada Fərmanın icrası çərçivəsində bu günlərdə məhkəmə-hüquq islahatlarının iki mühüm istiqamətini əhatə edən ikinci qanunvericilik aktları paketinin qəbul olunduğu

diqqətə çatdırılıb, vahid məhkəmə təcrübəsinin formalaşdırılması və məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən özəl ekspertiza institutunun yaradılması ilə bağlı 2020-ci il martın 1-dən qüvvəyə minən qanunvericilikdəki dəyişikliklərin ədalətli məhkəmə araşdırması hüququnun təmin edilməsində, keyfiyyətli hüquqi xidmətlərinin göstərilməsində xüsusi əhəmiyyəti vurğulanıb.

Yeni qanunvericilik aktlarından irəli gələn vəzifələrin mütəşəkkil və vaxtında icrası, o cümlədən özəl məhkəmə ekspertlərinə şəhadətnamələrin verilməsi, onlarla müsahibənin və təlimlərin keçirilməsi, məhkəmə ekspertlərinin, bu sahədə tədqiqat metodlarının reyestrlərinin aparılması və məhkəmə ekspertizasının metodiki fondunun yaradılması, KİV-lərin imkanlarından istifadə olunmaqla geniş maarifləndirmə işinin keçirilməsi, ekspertiza sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi və qabaqcıl təcrübələrin öyrənilməsi ilə bağlı konkret göstərişlər verilib. Dövlət başçısının məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq nazirliyin Məhkəmə Ekspertizası Mərkəzinin infrastrukturunun müasirləşdirilməsi üzrə görülən işlərə toxunulub, mərkəzin yeni binasının layihəsinin əyani təqdimatı keçirilib.

İclasda həmçinin qarşıda duran vəzifələr müzakirə edilib, ədliyyə işçiləri tərəfindən dövlətimizin başçısının insanlara layiqli xidmət, vətəndaş məmnuniyyəti, şəffaflıq, korrupsiyanın yolverilməzliyi kimi tələbləri daim rəhbər tutulmaqla etik davranış qaydalarına dönmədən əməl olunmasının vacibliyi vurğulanıb, vətəndaşların qəbulu və müraciətlərinə baxılması işinə diqqətin artırılması, maliyyə intizamının gücləndirilməsi, israfçılığa yol verilməməsi və s. ilə bağlı konkret tapşırıqlar verilib.

Bununla yanaşı, ədliyyə fəaliyyətinin istiqamətləri üzrə əsas prioritetlər, o cümlədən ədliyyə sahəsində idarəetmənin müasirləşdirilməsi, məhkəmə qərarlarının icrası işinin yaxşılaşdırılması, yeni seçilən bələdiyyə üzvləri və qulluqçularına effektiv metodoloji yardımın göstərilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi ilə bağlı və digər aidiyyəti tədbirlər müəyyən edilib.

Sonda bir sıra qeyri-hökumət təşkilatları dövlət qeydiyyatına alınıb.

# Gənclər ədliyyə orqanlarının kadr korpusunun əsasını təşkil edir

**Ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasəti möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilir. Bu gün gənclər ictimai-siyasi həyatda aktiv iştirak edir, həmçinin ölkədə geniş vüsət alan könüllülük hərəkatının aparıcı qüvvəsi olmaqla səmərəli fəaliyyətləri ilə fərqlənirlər. Dövlət başçısı tərəfindən respublikamızın hərtərəfli inkişafına uyğun olaraq aparılan struktur və kadr islahatları çərçivəsində yeni, savadlı, müasir dünyagörüşlü gənclər dövlət idarəçiliyinə irəli çəkilir, o cümlədən onlara rəhbər vəzifələr etibar olunur.**

Ölkə başçısının tapşırıqlarına uyğun olaraq ədliyyə orqanlarında kadrlarla işin səmərəli təşkilinə, gənclərin işlə təminatına xüsusi önəm verilərək son 15 ildə şəffaf müsabiqələr əsasında əksəriyyətini gənclər təşkil edən 3.000-ə yaxın şəxs qulluğa qəbul olunub, onlarla hazırlıqlı mütəxəssis ali dövlət orqanında müxtəlif məsul vəzifələrə irəli çəkiliblər. Hazırda çoxminli əməkdaşların təxminən yarısını gənclər, qulluğa qəbul edilən yeni nəsil ədliyyə işçiləri isə nazirliyin əksər xidmətlərinin kadr korpusunun 70 faizə qədərini təşkil edir.

Nazirlik tərəfindən, həmçinin penitensiar və tibb xidmətlərinin ixtisaslı kadrlarla komplektləşdirilməsi üzrə ardıcıl tədbirlər görülür, bu sahədə aidiyyəti təhsil müəssisələri ilə səmərəli əlaqələr qurularaq Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Ryazan Hüquq və





İdarəçilik Akademiyasında, həmçinin Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsində müvafiq olaraq penitensiar və tibb sahələri üzrə nazirlik üçün ixtisaslı gənc kadrlar hazırlanır.

Ümumilikdə aparılmış şəffaf seçimlər nəticəsində, həmçinin xüsusi təhsil müəssisələrini bitirmiş 1.300-ə yaxın gənc mütəxəssis penitensiar xidmətdə orta rəis heyətinə qulluğa qəbul olunub, tibb xidmətinin kadr korpusunun tam əksəriyyəti isə yenilənib. Eyni zamanda, kadrlardan daha səmərəli istifadə olunması məqsədilə onların vaxtaşırı rotasiyası üzrə tədbirlər görülərək təcrübəli işçilər rəhbər vəzifələrə irəli çəkilirlər. Cari ildə penitensiar və tibb xidmətləri üzrə 130-dək əməkdaş, o cümlədən 24 rəhbər işçi barəsində rotasiya tətbiq olunub.

Bu günlərdə penitensiar xidmətdə orta rəis heyəti vəzifəsinə qulluğa qəbulla bağlı, həmçinin penitensiar və tibb xidmətləri üzrə rəhbər vəzifələrə 50 nəfərə yaxın şəxs barəsində təyinatlar aparılıb.

31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində ədliyyə naziri Fikrət Məmmədov yeni təyinat alan əməkdaşlarla görüş keçirib.

Tədbirdə ədliyyə naziri çıxış edərək ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam və inkişaf etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın sosial-iqtisadi tərəqqisini, bütün sahələrdə qazanılan yüksək nailiyyətləri vurğulayıb, həyata keçirilən çoxşaxəli islahatlara dəyərli töhfələr verən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mühüm fəaliyyətini qeyd edib. Həmçinin dövlətimizin gənclərin hərtərəfli inkişafına yüksək qayğısından, könüllülük hərəkatının geniş təşviqindən bəhs edib.

Məhkəmə və ədliyyə, o cümlədən penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı aparılan islahatlardan danışan nazir dövlət başçısının bu sahədə mühüm əhəmiyyət kəsb edən fərman və sərəncamlarının icrası üzrə görülən işlər barədə məlumat verib, ölkə başçısının dövlət qulluqçularının qarşısında qoyduğu tələbləri, penitensiar xidmətdə qulluq keçmənin xüsusiyyətlərini diqqətə çatdırıb.

Bildirib ki, xidməti vəzifələrin icrası zamanı qanunçuluq, insan haqları, vətəndaşlara layiqli xidmət, humanizm prinsiplərinə, nizam-intizama, etik davranış qaydalarına dönmədən əməl olunması, korrupsiya və digər qeyri-prosessual münasibətlərin yolverilməzliyi hər bir əməkdaşın üzərinə düşən ən ümdə vəzifədir.

Eyni zamanda, penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, o cümlədən məhkumların hüquqlarının etibarlı qorunması, onlara yüksək keyfiyyətli tibbi xidmətin göstərilməsi, dərman və digər təminatlarının yaxşılaşdırılması, istehsal sahələrinin genişləndirilməsi, tərbiyə, əməliyyat-rejim və mühafizə işinə nəzarətin gücləndirilməsi, Mühafizə Alayının işinin daha səmərəli təşkili, vaxtından əvvəl cəzadan şərti azad etmə institutunun tətbiqi ilə bağlı və digər konkret tapşırıqlar verilib.

Görüşdə yeni təyinat alan əməkdaşların üzərlərinə düşən vəzifələrin layiqincə yerinə yetirəcəklərinə, onlara göstərilən yüksək etimadı doğruldacaqlarına əminlik ifadə olunub, fəaliyyətlərində uğurlar arzulanıb.

# Məhkəmə-Hüquq Şurasının iclası keçirilib

**Dekabrın 30-da Məhkəmə-Hüquq Şurasının keçirilmiş iclasında çıxış edən Şuranın sədri Fikrət Məmmədov ölkəmizdə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə təməli ümummilli liderimiz tərəfindən qoyulmuş islahatların ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə daim inkişaf etdirildiyini, 2019-cu ildə isə bu islahatların müasir çağırışlara uyğun yeni mərhələyə keçdiyini vurğulayıb.**

Bu mənada "Məhkəmə-hüquq sahəsində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-cu il tarixli Fərman məhkəmə sisteminin müstəqilliyinin möhkəmlənməsində və inkişafında, hüquqların məhkəmə müdafiəsinin gücləndirilməsində müstəsna əhəmiyyət kəsb edib.

Fərmanın icrası üzrə ötən dövrdə kompleks qanunvericilik, institusional və praktiki tədbirlər görülüb, yeni ixtisaslaşmış məhkəmələrin təşkili, cəza siyasətinin humanistləşdirilməsi, vahid məhkəmə təcrübəsinin formalaşdırılması, məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi və digər məsələlərlə bağlı 40-dək normativ aktın layihələri hazırlanıb və dövlət başçısının qanunvericilik təşəbbüsü ilə artıq bir sıra yeni qanunlar qəbul edilib. Sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən və çevik baxılmasını təmin etmək məqsədilə regional məhkəmələr təsbit edilib.

Dövlət başçısının 19 iyul 2019-cu il tarixli Sərəncamı ilə mövcud inzibati-iqtisadi məhkəmələr ləğv edilməklə yeni Kommersiya və ayrıca İnzibati məhkəmələr yaradılıb, onların 2020-ci ilin yanvar ayının 1-dən fəaliyyətə başlaması nəzərdə tutulub.



Yeni yaradılan məhkəmələrin fəaliyyətinin təmin edilməsi məqsədilə onların müvafiq bina, avadanlıq, digər təşkilati-texniki vasitələrlə təmin edilməsi üzrə zəruri tədbirlər görülüb, məhkəmə aparatları formalaşdırılıb. Həmçinin, bu məhkəmələrin ərazi yurisdiksiyası və gözlənilən iş həcmi nəzərə alınmaqla hakim ştatlarının sayı müəyyən olunub.

Eyni zamanda bildirilib ki, Fərmanın icrası üzrə bu ərəfədə qəbul edilmiş vahid məhkəmə təcrübəsinin formalaşdırılması və məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı olan növbəti qanunvericilik paketi məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılmasında, ədalətli məhkəmə araşdırması hüququnun tətbiq olunmasında müstəsna rol oynayacaq.

2020-ci ilin mart ayının 1-dən qüvvəyə minən yeni qanunvericiliyə uyğun olaraq məhkəmələrdə hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini və ədalət mühakiməsi həyata keçirilərkən maddi və prosessual hüquq normalarının eyni cür tətbiq edilməsini təmin etmək məqsədilə yeni mexanizmlər yaradılır, bu sahədə Ali Məhkəmə Plenumunun əhəmiyyəti artırılır, məhkəmə təcrübəsinə uyğun olmayan qərarların qəbul edilməsinin konkret hüquqi nəticələri, o cümlədən hakimlərin məsuliyyəti təsbit olunur.

Şurada yeni qanunvericilikdən irəli gələn məsələlərin vaxtında və düzgün icrası üzrə qarşıda duran vəzifələr müzakirə edilib, o cümlədən vahid məhkəmə təcrübəsinin formalaşdırılması ilə bağlı məhkəmə monitorinqlərinin keçirilməsi qaydasının müəyyən olunmasına dair konkret tapşırıqlar verilib.

Eyni zamanda iclasda Naxçıvan Muxtar Respublikasında, Bakı, Gəncə, Sumqayıt, Şirvan və Şəkidə yeni yaradılmış İnzibati və kommersiya məhkəmələrinin hakimlərlə komplektləşdirilməsi məqsədilə mövcud hakim korpusunun tərkibi nəzərdən keçirilib. Müzakirələr aparılaraq inzibati və kommersiya məhkəmələrinə hazırkı mərhələdə 42 hakimin təyin edilməsi, onların tərkibinin rayon (şəhər) məhkə-

mələrinin təcrübəli hakimləri hesabına möhkəmləndirilməsi məqsədəmüvafiq bilinib.

Bununla əlaqədar, hazırlanmış təkliflər dövlət başçısına təqdim olunub .

Təkliflər hazırlanarkən hakim kadrlarından daha səmərəli istifadə olunması məqsədilə müvafiq yerdəyişmələrin aparılması ehtiyacı nəzərə alınıb, habelə hakimlərin peşəkarlığına, müvafiq sahədə yüksək nəzəri və praktiki hazırlığına, mənəvi saflığına, etik davranışına xüsusi diqqət yetirilib.

Hər bir hakimin məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və etimadın möhkəmləndirilməsi üçün fəaliyyətində qanunçuluq, ədalət, qanun qarşısında bərabərlik, aşkarlıq və ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət etməsinin vacibliyi vurğulanıb.

Tədbirdə həmçinin ali və apelyasiya məhkəmələrinin 8 hakiminin son yaş həddinə çatması ilə əlaqədar səlahiyyətlərinə xitam verilmiş və onların məhkəmə sistemində uzunmüddətli fəaliyyətləri dəyərləndirilmişdir.

# Dövlət başçısının tapşırıqlarının icrası ədliyyə orqanlarının diqqət mərkəzindədir

## ◆ Ədliyyə naziri Naftalanda vətəndaşları qəbul edib

**Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq dekabrın 20-də ədliyyə naziri Fikrət Məmmədov Naftalan şəhəri Heydər Əliyev Mərkəzində Naftalan şəhərində, Goranboy və Tərtər rayonlarında yaşayan və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Əvvəlcə ümummilli lider Heydər Əliyevin Naftalan şəhərində abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib.



Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb, digər qaldırılan məsələlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgələrdə yerli sakinlərin qəbulu və müraciətlərinə baxılması ilə bağlı ölkə Prezidenti tərəfindən yaradılmış şəraitdən razılıqlarını ifadə ediblər.

## ◆ Naftalanda ədliyyə işçiləri və hakimlərlə müşavirə

**Naftalana səfəri çərçivəsində nazir F.Məmmədov ədliyyə orqanlarının və məhkəmənin işi ilə tanış olub, yerli və ətraf rayonların ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib.**

Müşavirədə çıxış edən nazir ölkə Prezidenti cənab İlham Əliyevin ədliyyə və məhkəmə üçün mühüm "yol xəritəsi" olan "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 2019-cu il 3 aprel tarixli Fərmanının icrası üzrə görülən işlərdən bəhs edərək çoxsaylı qanun layihələrinin hazırlanaraq dövlət başçısının qanunvericilik təşəbbüsü ilə artıq bir sıra yeni, o cümlədən bu günlərdə vahid məhkəmə təcrübəsinin formalaşdırılması, habelə məhkəmə ekspertizasının keçirilməsi ilə əlaqədar

fəaliyyətin təkmilləşdirilməsi, özəl məhkəmə ekspertizası institutunun yaradılması ilə bağlı mühüm qanunların qəbul olunduğunu vurğulayıb.

Bildirilib ki, yeni Qanunla ekspertizanın alternativ mexanizmləri kimi bu fəaliyyətin bəzi istisnalarla özəl məhkəmə ekspertləri tərəfindən, həmçinin elmi müəssisə və təşkilatlarda, ali təhsil müəssisələrində, "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Qanuna uyğun olaraq akkreditasiyadan keçmiş sınaq laboratoriyalarında və özəl hüquqi şəxslərdə də həyata keçirilməsinin mümkünlüyü, bu fəaliyyətlə məşğul olmaq üçün irəli sürülən tələblər müəyyən olunub.

Eyni zamanda həmin şəxslərin Ədliyyə Nazirliyi tərəfindən təşkil olunan icbari təlimə cəlb olunması, dövlət və ya özəl məhkəmə eksperti şəhadətnaməsinin verilməsinin və ya ləğv edilərək fəaliyyətə xitam verilməsinin əsasları, ekspertlərin attestasiyasının keçirilməsi, onlara ixtisas dərəcələrinin verilməsi qaydaları təsbit edilib.

Fərmanın icrası çərçivəsində, həmçinin İnzibati Xətalar, Mülki və İnzibati Prosessual məcəllələrində, habelə "İnzibati icraat haqqında" və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunlara edilmiş dəyişikliklər ekspert rəyinin verilməsi müddətlərinin dəqiqləşdirilməsinə, məhkəmə prosesi iştirakçılarının məhkəmə ekspertizasının aparılması ilə bağlı hüquqlarının genişləndirilməsinə xidmət edib.

Cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədi daşıyan bu mütərəqqi yeniliklərin, o cümlədən Azərbaycanda ilk dəfə özəl ekspertiza institutunun yaradılmasının bu sahədə mühüm addım olduğu vurğulanıb, ekspertiza fəaliyyətinin səmərəliliyinin artırılmasına, vətəndaşlara daha keyfiyyətli və əlçatan hüquqi xidmətlərin göstərilməsinə, insanların məmnunluğunun yüksəldilməsinə xidmət etdiyi bildirilib.

Müşavirədə qarşıda duran vəzifələrin, o cümlədən qanunvericiliyin yeni müddəalarının dürüst və vaxtında icrasının təmin olunması, onların mahiyyətinin dərindən öyrənilməsi və düzgün tətbiqi qeyd olunub.

Eyni zamanda, tədbirdə dövlət başçısının dekabrın 19-da keçirdiyi müşavirədə şəffaflığın təmin olunması, dövlətə və xalqa, vətəndaşlara layiqli xidmət göstərilməsi ilə bağlı tələblərini xüsusilə diqqətlə çatdıraraq insanlara daim qayğı və həssaslıqla yanaşılmasını, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulmasını vurğulayıb, etik davranış qaydalarına dönmədən əməl olunmasının, sui-istifadə hallarının və korrupsiyanın yolverilməzliyinin ən ümdə vəzifə olduğunu söyləyib.

## ◆ Ədliyyə nazirinin müavini Qəbələdə vətəndaşları qəbul edib

**Ölkə Prezidenti cənab İlham Əliyevin insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarının icrası Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır.**

Dekabrın 18-də ədliyyə nazirinin müavini Toğrul Musayev tərəfindən Qəbələ şəhəri Mədəniyyət Mərkəzində vətəndaşların qəbulu keçirilib.

Tədbirdən əvvəl ümummilli lider Heydər Əliyevin Qəbələ şəhərində abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib.



Qəbul zamanı vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri diqqətlə dinlənilib, qaldırılan məsələlərlə bağlı nazirliyin qəbulda iştirak edən məsul işçilərinə və aidiyyəti qurumlarına tapşırıqlar verilib.

Rayon sakinləri ölkə Prezidenti tərəfindən vətəndaşların bölgələrdə qəbulu və müraciətlərinə baxılması ilə bağlı yaradılmış şəraitdən razılıqlarını ifadə ediblər.

Səfər çərçivəsində həmçinin, Qəbələ "ASAN" xidmət mərkəzində ədliyyə qurumlarının fəaliyyəti və iş şəraiti ilə tanış olunub, vətəndaşlara daim qayğılı münasibət göstərilməsi, məmnunluğun yüksəldilməsi, etik davranış qaydalarına dönmədən əməl olunması vurğulanıb.

# Ədliyyə Nazirliyi Qlobal Hüquqşünaslar Forumunda təmsil olunub

**Çin Xalq Respublikasının Quançjou şəhərində "Elmi-texniki tərəqqi və hüquqi xidmətlər" mövzusunda Qlobal Hüquqşünaslar Forumu keçirilib.**

Dünyanın 60-a yaxın dövlətindən 800-dək nümayəndənin, o cümlədən xarici dövlətlərdən hökumət üzvlərinin, ədliyyə və məhkəmə orqanları rəhbərlərinin, vəkillər kollegiyalarının və digər hüquqşünasların qatıldığı mötəbər forumda Azərbaycan ədliyyə nazirinin müavini Toğrul Musayevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.

Açılışda Çinin ədliyyə naziri, Quandonq vilayətinin və nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri giriş nitqi ilə çıxış ediblər.

Tədbirdə dövlət və özəl sektor tərəfindən hüquqi xidmətlərin göstərilməsi, elmin və informasiya texnologiyalarının bu sahəyə təsiri və s. bu kimi aktual məsələlər müzakirə olunub, forumun yüksək səviyyəli seqmentində təqdimatlar edilib.

Təqdimatla çıxış edən nazir müavini T.Musayev Azərbaycanda rəqəmsal texnologiyaların hüquqi xidmətlərin göstərilməsində və məhkəmə sistemində tətbiqindən danışaraq bu sahədə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən qanunvericilik və institusional islahatlardan bəhs edib, e-hökumətin yaradılmasını, Azərbaycan brendi olan və təcrübəsi dünyada yayılan ASAN xidmətin səmərəli fəaliyyətini qeyd edib.




*"Elmi-texniki tərəqqi və hüquqi xidmətlər" mövzusunda Qlobal Hüquqşünaslar Forumu, Çin, Quançjou, 10-12 dekabr 2019-cu il*




Həmçinin ölkəmizdə ədliyyə və məhkəmə sistemində tətbiq olunan innovasiyalar və rəqəmsal texnologiyalar - "Elektron məhkəmə" informasiya sistemi, "Mobil məhkəmə", habelə "Mobil notariat" proqram təminatları, məsafədən notariat xidmətlərinin göstərilməsinə imkan verən elektron ədliyyə köşkü, səyyar notariat çantası barədə məlumat verilib.

Çıxışın mətni və Azərbaycanda "Rəqəmsal texnologiyalar və innovasiyalar", "Elektron məhkəmə" barədə broşüralar iştirakçılar arasında paylanılıb, Azərbaycan təcrübəsi maraqla qarşılanıb.

Səfər zamanı Çinin ədliyyə naziri Fu Jenghua ilə ikitərəfli görüş keçirilib. Görüşdə Azərbaycan və Çin arasında əməkdaşlıq münasibətlərinin inkişafı və bu əlaqələrin möhkəmləndirilməsində dövlət başçılarının siyasi iradəsi vurğulanıb, iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Sazişin səmərəli implemen-

tasiyası və qarşılıqlı səfərlərin faydası qeyd olunub, çinli nazir Azərbaycanlı həmkarına ehtiram və salamları çatdırıb. Həmçinin, Forumun əhəmiyyəti qeyd edilərək tədbirin mövzularından olan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə toxunulub, onun Avrasiyanın inkişafı üçün geniş imkanlar açdığı və Azərbaycanın bu təşəbbüsü ilk dəstəkləyənlərdən olduğu vurğulanıb.

Tədbir çərçivəsində Özbəkistan, Laos və Mərakeşin ədliyyə nazirləri, Rusiya və Kambocanın ədliyyə nazirinin müavinləri ilə görüşlər keçirilib.

Forumda və ikitərəfli görüşlərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı nəticələri xüsusilə diqqətə çatdırılaraq BMT-nin və digər beynəlxalq təşkilatların Ermənistan qoşunlarının işğal olunmuş torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qərar və qətnamələrinin uzun illərdir icra olunmadığı, həmçinin Ermənistan rəhbərliyinin destruktiv bəyanatlarının münaqişənin sülh yolu ilə həlli üzrə danışıqlara mane olduğu vurğulanıb, buna ciddi reaksiya verilməsinin zəruriliyi bildirilib.

Səfər çərçivəsində nümayəndə heyətimiz tərəfindən Quandonq vilayəti Ədliyyə Departamentinin Hüquqi Xidmətlər Mərkəzinə baş çəkilərək qurumun fəaliyyəti, əhaliyə göstərilən hüquqi xidmətlərin dairəsi və ən son informasiya texnologiyalarının tətbiqi ilə tanış olunub.



*Çin Xalq Respublikasının ədliyyə naziri Fu Jenghua ilə ikitərəfli görüş*

# Beynəlxalq İnsan Hüquqları Gününə həsr olunmuş tədbirlər

## ◆ "İnsan hüquqları və yerli özünüidarəetmə" mövzusunda "dəyirmi masa"

**BMT-nin Baş Məclisi tərəfindən 1948-ci ildə "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"nin qəbul olunduğu tarix - dekabr ayının 10-u hər il bütün dünyada Beynəlxalq İnsan Hüquqları Günü kimi qeyd olunur.**

Demokratiya və insan hüquqları, sosial tərəqqi kimi ümumbəşəri dəyərlərə sadiq olan ölkəmizdə insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə, vətəndaş cəmiyyətinin inkişafına yönələn davamlı tədbirlər görülür, bu sahədə nüfuzlu beynəlxalq qurumlarla səmərəli əməkdaşlıq edilir, respublikamız 50-dən çox beynəlxalq sənədə qoşularaq beynəlxalq öhdəliklərin həyata keçirilməsi daim diqqətdə saxlanılır.

Dekabrın 9-da Ədliyyə Nazirliyində Beynəlxalq İnsan Hüquqları gününə həsr olunmuş "İnsan hüquqları və yerli özünüidarəetmə" mövzusunda "dəyirmi masa" keçirilib.

Tədbirdə nazirliyin məsul rəhbər şəxsləri, millət vəkili, bələdiyyələrin milli assosiasiyaları,



vətəndaş cəmiyyəti institutlarının və beynəlxalq təşkilatların təmsilçiləri iştirak ediblər.

Ədliyyə Nazirliyi İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova dövlətimizin ali məqsədi olan insan hüquqlarının təmin edilməsi üzrə görülən işlər, o cümlədən ictimai iştirakçılığın təşviqi, vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlıq barədə məlumat verib, ölkəmizdə 20 illiyi qeyd olunan yerli özünüidarəetmə sahəsində ötən dövrdə mühüm addımların atıldığını, insan hüquqlarının təmin olunmasında bələdiyyələrin rolunu vurğulayıb.

Nazirliyin Bələdiyyələrlə iş mərkəzinin rəisi Rəhman Məmmədov Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmin olunması, onlara metodiki köməkliyin göstərilməsi, səmərəli inzibati nəzarətin təşkili, bələdiyyə üzvləri və qulluqçularının maarifləndirilməsi, o cümlədən Ədliyyə Akademiyasında insan hüquqları sahəsində beynəlxalq sənədlərin, o cümlədən İnsan hüquqlarına dair Avropa Konvensiyasının, Yerli özünüidarəetmə haqqında Avropa Xartiyasının öyrənilməsi sahəsində görülən işlərdən, bu sahədə vətəndaş cəmiyyəti institutları, beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıqdan danışıb.

Millət vəkili Tahir Rzayev bələdiyyələrin fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsindən, bu sahədə beynəlxalq praktikadan bəhs edib, yerli məsələlərin həllində bələdiyyələrin təşəbbüskarlığının artırılması, bələdiyyə-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, əhalinin bələdiyyə fəaliyyəti barədə daha geniş maarifləndirilməsi ilə bağlı fikirlərini bölüşüb, bu sahədə Ədliyyə Nazirliyi, bələdiyyələrin milli assosiasiyaları ilə birgə əməkdaşlıqda tədbirlərin keçirildiyini diqqətə çatdırıb.

Çıxış edən vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri - Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsinin rəhbəri Səadət Bənənyarlı, Azərbaycan İnsan Hüquqları Müdafiə Mərkəzinin üzvü Zalihə Tahirova və Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni tədbirin əhəmiyyətini qeyd edib, son dövrlər nazirliyin ayrı-ayrı istiqamətləri üzrə fəaliyyətinin ictimailəşməsini vurğulayıb, vətəndaşların yerli məsələlərinin həllində bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən şəffaflığın artırılması, ictimai iştirakçılığın təşviqi, bələdiyyələrlə QHT-lər arasında əlaqəli fəaliyyətin genişləndirilməsi ilə bağlı və digər təkliflər səsləndiriblər.

Eyni zamanda tədbirdə iştirak edən Avropa İttifaqının və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin təmsilçiləri, Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələri Milli assosiasiyalarının sədrləri tərəfindən müzakirə olunan məsələlərlə bağlı çıxışlar edilib, faydalı fikir mübadiləsi aparılıb.

# "İnsan hüquqlarının qorunması media müstəvisində" mövzusunda KİV-lərlə görüş

**İnsan hüquq və azadlıqlarının təmin edilməsi, onların müdafiəsi və daha da genişləndirilməsi dövlətimizin ən ali məqsədi hesab olunur. Bu məqsədin müəyyənləşdirilməsi, onun həyata keçirilmə mexanizmlərinin işlənilməsi və reallaşdırılması, sözügedən sahədə hüquqi bazanın yaradılması müstəqil dövlətimizin qurucusu, ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.**



İnsan hüquqlarının təmin olunmasında müstəsna rolu olan məhkəmə hakimiyyətinin KİV ilə əməkdaşlığı müasir dövrdə mühüm əhəmiyyət kəsb edir. Ulu Öndərin 1998-ci ildə imzaladığı senzuranın ləğv olunması ilə bağlı tarixi Fərmanı mətbuatın inkişafı üçün yeni dövr açıb və Azərbaycan mətbuatı tam şəkildə azad fəaliyyət göstərməyə başlayıb. Bu siyasət ölkə Prezidenti cənab İlham Əliyevin səriştəsi və həssas yanaşması ilə davam etdirilərək mətbuat ölkədə ən sürətlə inkişaf edən, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə təkmilləşən fəaliyyət sahələrindən birinə çevrilib. Bu gün ölkə mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, milli-mənəvi dəyərlərin qorunub saxlanması və təbliğində, hüquqi maarifləndirmə sahəsində mühüm rol oynayır.

Ədliyyə Nazirliyi fəaliyyətində şəffaflığa, aşkarlığa və ictimaiyyətlə əlaqələrə daim böyük önəm verərək kütləvi informasiya vasitələri, vətəndaş cəmiyyəti institutları ilə səmərəli əməkdaşlıq edir.

Dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 2019-cu il 3 aprel tarixli Fərmanı ilə aidiyyəti qurumların qarşısında mühüm vəzifələr qoyulub. Fərmanın icrası çərçivəsində məhkəmə hakimiyyətinə ictimai etimadın artırılması, məhkəmə fəaliyyətində şəffaflığın artırılması, geniş ictimaiyyətin məlumatlandırılması üzrə işlərin davamı olaraq Məhkəmə-Hüquq Şurasının son iclasında Şuranın sədri, ədliyyə naziri Fikrət Məmmədovun təşəbbüsü ilə kütləvi informasiya vasitələri ilə qarşılıqlı əlaqələrin səmərəli qurulması üzrə təşkilati məsələlər müzakirə edilərək, müvafiq qərarlar qəbul olunub.

Bununla əlaqədar 10 dekabr - Beynəlxalq İnsan Hüquqları Gününə həsr olunmuş tədbirlər çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən Məhkəmə-Hüquq Şurası və Azərbaycan Mətbuat Şurası ilə birgə "İnsan hüquqlarının qorunması media müstəvisində" mövzusunda KİV-lərlə görüş keçirilib.

Görüşdə Ədliyyə Nazirliyinin aidiyyəti qurumlarının, Məhkəmə-Hüquq Şurasının və Azərbaycan Mətbuat Şurasının rəhbərliyi və əməkdaşları, vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri, çoxsaylı KİV rəhbərləri və jurnalistlər iştirak ediblər.

Ədliyyə Nazirliyi İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova çıxış edərək Beynəlxalq İnsan Hüquqları Günündə keçirilən tədbirin əhəmiyyətini qeyd edib, demokratiya və insan hüquqları, sosial tərəqqi kimi ümumbəşəri dəyərlərə sadiq olan ölkəmizdə ümummilli lider Heydər Əliyev tərəfindən insan hüquqlarının təmin olunmasının dövlətimizin ali məqsədi kimi bəyan edildiyini, bu istiqamətdə mühüm addımların atıldığını vurğulayıb. Bildirib ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə, vətəndaş cəmiyyətinin inkişafına yönələn davamlı tədbirlər

görülür, bu sahədə nüfuzlu beynəlxalq qurumlarla səmərəli əməkdaşlıq edilir, həmçinin respublikamız 50-dən çox beynəlxalq sənədə qoşularaq beynəlxalq öhdəliklərin həyata keçirilməsi daim diqqətdə saxlanılır.

İdarə rəisi insan hüquqlarının etibarlı təmin olunmasında məhkəmə hakimiyyətinin müstəsna rolunu qeyd edərək məhkəmələrdə mətbuatla əlaqələrə məsul spiker-hakimlərin ayrıldığını diqqətə çatdırıb. Bildirib ki, görüşün məqsədi həmin hakimlərlə tanışlıqla yanaşı, məhkəmələrlə media orqanları arasında əməkdaşlığın genişləndirilməsi, məhkəmə fəaliyyəti barədə əhalinin mütəmadi, dolğun və düzgün məlumatlandırılması məsələlərinin müzakirə olunmasıdır.

Azərbaycan Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli medianın məhkəmə fəaliyyətinin, məhkəmə işlərinin işıqlandırılmasında daim maraqlı olduğunu vurğulayıb. Qeyd edilib ki, jurnalistlərin etik davranış Kodeksi mətbuat nümayəndələrinin bu sahədə obyektiv və qərəzsiz fəaliyyəti üçün mühüm əsas yaradır. Ədliyyə Nazirliyinin KİV-lərlə fəal əməkdaşlığın qurulmasına böyük əhəmiyyət verdiyini və bu sahədə səmərəli əməkdaşlığın qurulduğunu deyən M.Ələsgərli keçirilən birgə tədbirlərin bunun bariz nümunəsi olduğunu vurğulayıb.

Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət baş idarəsinin rəisi Elçin Qasımov bildirib ki, məhkəmələrin əsas vəzifəsi insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasıdır. Məhkəmələrdə baxılan işlərin sayı bəzi illərdə yarım milyona çatıb və bu işlər ümumilikdə bir milyona yaxın insanı əhatə edib. Azərbaycanda məhkəmə qərarlarının sabitlik göstəricisinin 90 faizə yaxın olduğunu vurğulayan E.Qasımov dövlətimizin başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının icrası üzrə görülən kompleks qanunvericilik, institusional və praktiki işlərdən danışıb, həyata keçirilən tədbirlərin mediada geniş işıqlandırıldığını diqqətə çatdırıb. O, məhkəmələrin nüfuzunun artırılması, şəffaflığın təmin olunması üçün KİV təmsilçiləri ilə görüşlərin əhəmiyyətini qeyd edib.

Məhkəmə-Hüquq Şurasının Aparat rəhbəri Cavid Hüseynov ölkə Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanının məhkəmə-hüquq sistemində islahatların dərinləşməsinə xidmət etdiyini bildirib, Məhkəmə-Hüquq Şurasında hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinə müdaxilə və digər neqativ halların aradan qaldırılması məqsədilə müvafiq məlumatların qəbulu üçün "qaynar xətt"in yaradılmasını, məhkəmələrin fəaliyyətinə dair mütəmadi monitorinqlərin aparılmasını və məhkəmələrdə bilavasitə vətəndaş qəbullarının keçirilməsinə başlanıldığını qeyd edərək bunun insanların hüquqlarının etibarlı müdafiəsinə yönəldiyini vurğulayıb. Qeyd edib ki, məhkəmə hakimiyyətinə ictimai etimadın artırılmasında media ilə münasibətlərin düzgün qurulması olduqca vacibdir və bu, digər dövlətlərdə də aktualdır. Bununla bağlı ötən il İnsan Hüquqları üzrə Avropa Məhkəməsi tərəfindən hakimlərin media ilə əlaqələrinin gücləndirilməsinə dair mühüm sənəd qəbul olunub. Bu məsələ Məhkəmə-Hüquq Şurasının iclasında müzakirə olunub və ilkin olaraq Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda fəaliyyət göstərən məhkəmələrin hər birində media ilə işləyəcək bir hakim, eləcə də Şuranın özündə məsul əməkdaş müəyyən edilib. Həmin şəxslər tədbirdə KİV təmsilçilərinə təqdim olunub.

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu insanların öz hüquqlarını bilmələrinin təşviqi baxımından tədbirin önəmini xüsusi vurğulayıb. Konstitusiyaya əsasən, ölkəmizdə məhkəmələrin müstəqil fəaliyyətinin tam təmin olunduğunu qeyd edən H.Babaoğlu məhkəmələrin nüfuzunun artırılması, media ilə səmərəli əməkdaşlığın inkişaf etdirilməsi, eləcə də vətəndaşların məhkəmələrin fəaliyyəti ilə bağlı məlumatlandırılması baxımından hakimlərin, tanınmış hüquqşünasların dövri mətbuatda mütəmadi çıxış etmələrinin zəruriliyini bildirib. H.Babaoğlu məhkəmələrdə media ilə əməkdaşlıq üzrə hakimlərin ayrılmasının mətbuatın Azərbaycanda məhkəmə-hüquq sahəsində inkişaf prosesinə cəlb olunması baxımından önəmini vurğulayıb.

"İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Ədliyyə Nazirliyinin media ilə əlaqələrini yüksək qiymətləndirib, bu əlaqələrin hakimlərlə qurulmasının əhəmiyyətini qeyd edərək məhkəmələrin fəaliyyətinin ictimailəşdirilməsinin medianın da üzərinə mühüm vəzifələr qoyduğunu bildirib. Son illər Azərbaycanda

məhkəmə-hüquq sahəsində mühüm islahatların həyata keçirildiyini diqqətə çatdıran V.Rəhimzadə medianın da bu islahatlar barədə məlumatların ədalətli və operativ qaydada ictimaiyyətə çatdırılmasına maraq göstərdiyini söyləyib.

"SƏS" Media Qrupunun rəhbəri Bəhruz Quliyev tədbirin Beynəlxalq İnsan Hüquqları Günündə keçirilməsi ilə xüsusilə önəmli olduğunu, ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə demokratik hüquqi dövlətin qurulduğunu, insan hüquqların etibarlı müdafiə mexanizmlərinin yaradıldığını diqqətə çatdıraraq bildirib ki, bu gün ölkə Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşərək dövlətimizi daha da möhkəmləndirməliyik. O, əsas vəzifəsi insan hüquqlarının təmin olunması olan məhkəmə hakimiyyətinin və hüquq-mühafizə orqanlarının fəaliyyətinə ictimai marağın böyük olduğunu qeyd edərək media ilə əməkdaşlığın qurulmasının ölkəmizdə məhkəmə-hüquq sahəsində reallaşdırılan islahatların növbəti mərhələsi olduğunu vurğulayıb.

"Xalq Cəbhəsi" qəzetinin baş redaktoru, Mətbuat Şurasının idarə heyətinin üzvü Elçin Mirzəbəyli, "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, Mətbuat Şurasının idarə heyətinin üzvü Azər Həsrət, Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının sədri Ələddin Cəfərov, vətəndaş cəmiyyətinin təmsilçiləri Səadət Bənənyarlı, Əliməmməd Nuriyev, Əhməd Abbasbəyli və digərləri çıxışlarında məhkəmələrdə mətbuat məsələlərinə məsul şəxsin fəaliyyət mexanizminin qurulması, media tərəfindən məhkəmə prosesinə müdaxilə etmədən fəaliyyətin obyektiv və qərəzsiz işıqlandırılması, hakimlər tərəfindən ictimaiyyəti maraqlandıran məsələlərlə bağlı mediada daha tez-tez çıxışların edilməsi, hakimlər və jurnalistlər üçün birgə müvafiq təlim və seminarların təşkili və digər məsələlərlə bağlı təkliflər səsləndirilib.

# Məhkəmə ekspertizası sahəsində qanunda dəyişiklik edilməsi mühüm hadisədir

**Dekabrın 20-də Ədliyyə Nazirliyinin və Vəkillər Kollegiyasının təşkilatçılığı ilə "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə Qanunun və Fərmanın ictimai müzakirəsi ilə bağlı brifinq keçirilib.**

Tədbirdə Ədliyyə Nazirliyinin aidiyyəti qurumlarının və Vəkillər Kollegiyasının rəhbər şəxsləri və üzvləri, vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri, məhkəmələrdə mətbuatla əlaqələrə məsul spiker-hakimlər, bank sektorunun nümayəndələri, sahibkarlar və çoxsaylı KİV-lər iştirak ediblər.

Nazirliyin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova tədbiri açaraq bildirib ki, 2019-cu ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə, o cümlədən məhkəmə-hüquq sistemində köklü islahatlar həyata keçirilib. "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" dövlətimizin başçısının 2019-cu il 3 aprel tarixli Fərmanının 7.4-cü bəndinə əsasən, məhkəmə ekspertizası fəaliyyətinin alternativ mexanizmləri, o cümlədən ekspertizanın özəl qurumlar tərəfindən həyata keçirilməsi ilə bağlı beynəlxalq təcrübənin təhlil edilməsi və müvafiq təkliflərin hazırlanması tapşırığı verilib.

Bununla əlaqədar respublikada, həmçinin xarici ölkələrdə məhkəmə ekspertizası fəaliyyətinin həyata keçirilməsi üzrə təcrübələr öyrənilib, müvafiq normativ sənədlər təhlil edilib, bir sıra qabaqcıl Avropa dövlətlərinin praktikası nəzərdən keçirilib. Beynəlxalq təcrübə nəzərə alınaraq ekspertiza işinin beynəlxalq standartlar səviyyəsində müasirləşdirilməsi məqsədilə "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər olunması barədə qanun layihəsi hazırlanaraq 2019-cu il noyabrın 29-da qəbul edilib.

Aynur Sabitova ədalət mühakiməsinin səmərəliliyinin artırılması, məhkəmə hakimiyyətinə əlçatanlığın yüksəldilməsinə yönələn bu sənədin üzərimizə yeni vəzifələr qoy-





duğunu bildirib. Qeyd olunub ki, "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununa dəyişiklik edilməsi ölkəmizdə müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədi daşıyır.

Vəkillər Kollegiyasının sədri Anar Bağırov bildirib ki, belə görüşlər hüquqi maarifləndirmə və təbliğat, baş verən yeniliklər barədə ictimaiyyətə, vətəndaşlara düzgün, dolğun məlumatın çatdırılmasına məqsədlərinə xidmət edir. Vəkillər Kollegiyası hesab edir ki, məhkəmə-hüquq sahəsində imzalanan fərmanlar vəkilliyin nüfuzunun artırılması, onun güclənməsi baxımından da müstəsna əhəmiyyətə malikdir. Dövlət hesabına təmin olunan hüquqi yardım bu sahədəki problemləri aradan qaldırmaqdadır. Vəkillik tarixində ilk dəfə büdcədən dövlət hesabına göstərilən hüquqi yardıma görə ayrılan vəsait Vəkillər Kollegiyasının hesabına köçürüləcək.

Bundan başqa, gələn həftə Vəkillər Kollegiyasının nəzdində yeni qurum Hüquqi Yardım və Təlim Mərkəzi fəaliyyətə başlayacaq. Dövlət hesabına göstərilən hüquqi yardım məsələləri həmin o qurumdan idarə olunacaq. Bununla bağlı biz hazırlıq işləri aparmışıq. Bütün bunlar vətəndaşların məmnunluğuna səbəb olacaq. Kifayət qədər vəsaiti olmayan şəxslər keyfiyyətli hüququ yardıma çatımlılıq hüququ əldə edəcək.

Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunun 15-ci maddəsinə, "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununa edilmiş dəyişikliklər, prosessual qanunvericiliyə edilən mütərəqqi dəyişikliklər vətəndaşlara keyfiyyətli hüquqi yardımın göstərilməsi məqsədlərinə xidmət edir. İndiyədək vəkillər ekspertiza üçün müstəqil olaraq Məhkəmə Ekspertiza Mərkəzinə müraciət etmək hüququna malik deyildilər. Qanunvericiliyə edilən dəyişikliyə əsasən, məhkəmə prosesi iştirakçıları, vəkillər Məhkəmə Ekspertiza Mərkəzi, yaxud gələcəkdə fəaliyyət göstərəcək müstəqil ekspertlə müqavilə bağlamağa, müvafiq məsələləri ekspert qarşısında qaldırmağa, ekspertiza üçün müraciət etməyə imkan verəcək. Beləliklə, vəkillər onlara müraciət edən şəxslərə keyfiyyətli hüquqi yardım göstərmək, onların mənafeyini təmin etmək baxımından geniş imkanlara sahib olacaqlar. Azərbaycanda fəaliyyət göstərən vəkillik korpusu Prezident İlham Əliyevə onun təşəbbüsü ilə həyata keçirilən bu islahatlara, qanunda edilən dəyişikliklərə görə minnətdarlığını bildirir. Məqsəd ölkədə müasir, beynəlxalq standartlara cavab verən, ictimai etimadı tam özündə əhatə edən ədalət mühakiməsini formalaşdırmaqdır. Qanunvericilikdə edilən dəyişikliklər ədalət mühakiməsində iştirak edən bütün subyektlərin, vəkillərin, vətəndaşların məmnunluğuna səbəb olacaq.

Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin sədri Fuad Cavadov qeyd edib ki, dövlətimizin başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 2019-cu il 3 aprel tarixli Fərmanı məhkəmə ekspertiza sahəsində də normativ hüquqi aktların qəbulunu və dəyişikliklərin olunmasını zəruri edirdi. Dekabrın 18-də məhkəmə ekspertizası fəaliyyəti ilə bağlı qanunda dəyişikliklər edilib. Tapşırıqlardan biri mülki işlərin ekspertiza icraatındakı baxılması müddətlərinin dəqiq-

ləşdirilməsi idi. Fərmanda göstərilir ki, icra müddəti işin, materialın ekspertiza mərkəzinə daxil olduğu gündən hesablanır.

Bu sahədəki yeniliklər barədə danışan Fuad Cavadov qeyd edib ki, ekspertiza sahəsində qanunda edilən dəyişikliklər, xüsusilə Azərbaycanda ilk dəfə özəl ekspertizanın fəaliyyət göstərməsi bu sahədə mühüm və inqilabi addımdır. Özəl ekspertiza mərkəzlərinin yaradılması zərurəti ekspertiza müddətləri ilə bağlı yubanmaların aradan qaldırılması ilə bağlıdır. Hazırda qanunvericilikdə ekspertizanın icra müddəti konkret göstərilib. Yeni dəyişikliyə görə, ekspertiza müddəti iş ekspertizaya təqdim olunan gündən hesablanır.

Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxslərə dair tələblərdən danışan Ədliyyə Nazirliyinin Qanunvericilik Baş İdarəsinin İnzibati və hərbi normativ aktlar idarəsinin rəisi Elçin Nəsibov bildirib ki, bu dəyişikliklər hazırlanarkən bir sıra ölkələrin qanunvericiliyi araşdırılıb, beynəlxalq təcrübə nəzərə alınıb. "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Qanuna təklif olunan dəyişikliklərdə məhkəmə ekspertinə verilən tələblər, məhkəmə ekspertinin fəaliyyətinə xitam verilməsi, məhkəmə ekspertlərinin attestasiyası, məhkəmə ekspertlərinin reyestri, məhkəmə ekspertizası tədqiqat metodlarının dövlət reyestri, məhkəmə ekspertizasının aparılmasının əsasları və digər məsələlər öz əksini tapıb.

Vəkillər Kollegiyasının İntizam Komissiyasının sədr müavini İlhamə Həsənova, Vətəndaş cəmiyyətinin təmsilçiləri Əliməmməd Nuriyev, Sahib Məmmədov və başqaları çıxış edərək ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması, ədalət mühakiməsi mexanizmlərinin effektiv fəaliyyətinin təmin edilməsi baxımından dəyişiklikləri yüksək qiymətləndiriblər. Vurğulayıblar ki, bu dəyişikliklər məhkəmə ekspertizasının təyin edilməsindəki problemlərin həllinə kömək edəcək.

Sonda mətbuat nümayəndələrinin sualları cavablandırılıb.

# "Mobil məhkəmə" proqram təminatı ictimaiyyətə təqdim olunub

**Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə məhkəmə sisteminin müasirləşdirilməsi, ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması, vətəndaşların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması ilə bağlı mütərəqqi islahatlar həyata keçirilir, bu sahədə innovasiyalar tətbiq olunur. Əminliklə söyləyə bilərik ki, respublikamızın hərtərəfli inkişafına uyğun olaraq aparılan müasir məhkəmə-hüquq islahatlarının müəllifi məhz Prezident İlham Əliyevdir.**

Bu sözlər dekabrın 24-də - dövlətimizin başçısının doğum günündə Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə "Fairmont" otelində keçirilmiş ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılmasında növbəti mühüm addım və məhkəmə istifadəçiləri üçün çox faydalı olan "Mobil məhkəmə" proqram təminatının geniş ictimai təqdimatı zamanı səsləndirilib.

Tədbirdə Ədliyyə Nazirliyinin, Məhkəmə-Hüquq Şurasının, Baş Prokurorluğun, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, Vəkillər Kollegiyasının məsul şəxsləri, Milli Məclisin deputatları, hakimlər, sahibkar və bank sektorunun təmsilçiləri, ictimaiyyətin, vətəndaş cəmiyyəti institutlarının və çoxsaylı KİV nümayəndələri iştirak ediblər.

Təqdimatı açan Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət inkişafı kursunu uğurla həyata keçirən Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın demokratik inkişaf yolu ilə inamla irəlilədiyini, bütün sahələrdə qazanılan nailiyyətləri qeyd edib, məhkəmə-hüquq sistemindəki islahatlardan və yeniliklərdən danışıb. Dövlətimizin başçısının həyata keçirdiyi çoxşaxəli islahatlara də-






yərli töhfələr verən Azərbaycanın Respublikasının Birinci-vitse prezidenti Mehriban Əliyevanın xidmətlərini qeyd edib.

Bildirilib ki, "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" ölkə Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanı ədliyyə və məhkəmə sisteminin inkişafı üçün mühüm "yol xəritəsi" olub və ötən müddətdə xeyli işlər görülüb. Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsü ilə artıq bir sıra yeni, o cümlədən bu ərəfədə vahid məhkəmə təcrübəsinin formalaşdırılması, habelə məhkəmə ekspertizasının keçirilməsi ilə əlaqədar fəaliyyətin təkmilləşdirilməsi, özəl məhkəmə ekspertizası institutunun yaradılması ilə bağlı mühüm qanunlar qəbul olunub.

Həmçinin bu gün ədliyyə sahəsində elektron xidmətlərin, müasir texnologiyaların və innovasiyaların tətbiqinə xüsusi diqqət yetirildiyi qeyd olunaraq xüsusi elektron notariat elektron çantası, yalnız Azərbaycanda mövcud olan elektron ədliyyə köşkü və Azərbaycan məhsulu olan mobil notariat proqram təminatı, habelə azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında elektron nəzarət vasitələrinin -




elektron qolbaqların tətbiqi barədə məlumat verilib.

Qeyd olunub ki, Prezident İlham Əliyevin 2014-cü il 13 fevral tarixli Sərəncamına əsasən və Dünya Bankı ilə birgə işlənilərək hazırlanmış "Elektron məhkəmə" informasiya sistemi istifadəyə verilib.

Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq "Elektron məhkəmə" informasiya sisteminin funksionallığının artırılması üzrə əməli tədbirlər görülüb, o cümlədən məhkəməyə əlçatanlığın asanlaşdırılması məqsədilə kompütərə qoşulmadan məlumatları dərhal əldə etməyə, prosesdə mobil qaydada iştiraka və sair imkan verən "Mobil məhkəmə" proqram təminatı işlənib hazırlanıb. Ölkəmizdə rəqəmsal transformasiyanın daha bir nümunəsi olaraq yaradılan "Mobil məhkəmə"nin dünyada tətbiqinə çox az rast gəlinir və demək olar ki, Azərbaycan bu sahədə birincilər sırasındadır.

A.Sabitova bildirib ki, bugünkü tədbirimizin anonsu ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun möhtərəm Prezidentimiz cənab İlham Əliyevə həsr edilmiş "Məhkəmə hakimiyyətinin müstəqilliyinin real təminatçısı" adlı məqaləsində verilmişdir.

Tədbirdə mobil məhkəmə barədə təqdimat nümayiş etdirilib. Məlumat verilib ki, ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılmasına xidmət edən "Mobil məhkəmə" məhz bu gündən dekabrın 24-dən istifadəyə verilir. Artıq vətəndaşlar "Mobil məhkəmə" proqram təminatını bu linkə (https://play.google.jom/store-/apps/details?id=com.emehkeme) daxil olmaqla öz telefonlarına yükləyərək "Elektron məhkəmə" informasiya sisteminin imkanlarından mobil qaydada istifadə edəcək və faydalana biləcəklər.

Digər çıxış edənlər məhkəməyə əlçatanlığın asanlaşdırılması məqsədilə məlumatları mobil qaydada dərhal əldə etməyə imkan verən "Mobil məhkəmə" proqram təminatının istifadəyə verilməsini yüksək qiymətləndiriblər.

Sonra sual-cavab sessiyası keçirilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Tədbir musiqili bədii hissə ilə davam edib.

# Hakimliyə namizədlərlə yazılı imtahan keçirilib





**Ölkə Prezidenti cənab İlham Əliyevin məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tövsiyə və tapşırıqları üzrə görülən tədbirlər çərçivəsində hakim vəzifəsinə namizədlərin tam şəffaf şəraitdə və obyektiv meyarlar əsasında seçimi aparılır.**

Hakim olmaq üçün sənədlərini təqdim etmiş 200-dən çox namizədlə cari ilin sentyabr ayında keçirilmiş test üsulu ilə və yazılı imtahanlarda 81 nəfər müvəffəqiyyət qazanıb. Hazırda Hakimlərin Seçki Komitəsi tərəfindən həmin namizədlərlə şifahi imtahanlar keçirir.

Eyni zamanda namizədlərin sənəd qəbulu davamlı xarakter alıb və ötən ayın 23-də 230-dək olan növbəti namizədlərlə test imtahanı keçirilib. Suallar müasir texnologiyalar tətbiq edilməklə, fərdi qaydada, kompüter vasitəsilə cavablandırılıb, hər bir namizədin nəticələri dərhal elan olunub. İmtahanda 60 və daha artıq bal toplamış 108 nəfər namizəd növbəti mərhələyə - yazılı imtahana buraxılıb.

Dekabr ayının 14-də Dövlət İmtahan Mərkəzində həmin namizədlərlə yazılı imtahan keçirilib.

İmtahandan əvvəl Hakimlərin Seçki Komitəsi həmin binada, özünün qapalı iclasında imtahanda istifadə edilməsi üçün cinayət və mülki sahələr üzrə kazus xarakterli suallar hazırlayıb və onlar dərhal imtahan zalına gətirilib. Namizədlər həmin suallar sırasından, təsadüfi yolla biri cinayət, biri isə mülki sahəyə aid suallar seçiblər.

4 saat davam edən imtahanda hakimliyə namizədlərə həmin sualları cavablandırmaqla, kazusları həll etmək, qoyulmuş məsələlərə düzgün qiymət vermək, qanunun məzmununu dolğun açmaqla onun səlist izahını vermək bacarıqlarını nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

İmtahan prosesi müşahidəçilər tərəfindən şəffaf prosedur kimi yüksək dəyərləndirilmişdir.

Cavab vərəqələri tam anonimləşdirildikdən sonra ikiqat yoxlama üsulu ilə qiymətləndirilməklə nəticələr elan olunacaqdır.

Eyni zamanda Hakimlərin Seçki Komitəsi bildirir ki, hakimliyə namizədlərin sənədlərinin qəbulu davam edir və hakim olmaq arzusunda olan hüquqşünaslar müsabiqəyə dəvət olunurlar.

# Azərbaycan Notariat Palatası Beynəlxalq Notariat İttifaqının Konqresində təmsil olunub

**Prezident İlham Əliyevin rəhbərliyi ilə ədliyyə sistemində aparılan islahatlar çərçivəsində notariusların fəaliyyətinin əlaqələndirilməsi, onların peşə hazırlığının artırılması, bu sahədə müsbət təcrübələrin təşviqi və beynəlxalq əməkdaşlığın həyata keçirilməsi məqsədilə notariusların müstəqil özünüidarə orqanı olan Notariat Palatası yaradılaraq səmərəli fəaliyyət göstərir.**

Azərbaycan Notariat Palatası dünyanın 90-a yaxın dövlətini birləşdirən Beynəlxalq Notariat İttifaqının İndoneziyanın Cakarta şəhərində keçirilən 29-cu Konqresində təmsil olunub. Tədbirdə Notariat Palatasının sədri Hüseyn Məmmədov, notariuslar Elmar Kərimov və Azər Hacıyev iştirak ediblər.

Konqresdə notariat prinsiplərinin XXI əsrdə hüquqi qüvvəsi və fiziki şəxslərin fəaliyyət və hüquq qabiliyyəti və digər aktual mövzular üzrə

müzakirələr aparılıb, kontinental hüquq sistemi olan ölkələrdə notariatın sabit mülki dövriyyənin tənzimlənməsində, fiziki və hüquqi şəxslərin hüquq və mənafelərinin qorunmasında, məhkəmə mübahisələrinin minimuma endirilməsində vacib rolu vurğulanıb, qlobal iqtisadi inkişaf və rəqəmsallaşma dövründə elektron notariat xidmətlərinin formalaşdırılması üçün yeni imkanlar yarandığı qeyd olunub, İttifaqa daha iki ölkə - Belarus ve Livan notariat palataları qəbul ediliblər.

Səfər zamanı Azərbaycan nümayəndə heyəti tərəfindən Beynəlxalq Notariat İttifaqının prezidenti Xose Markeno de Lyano və səlahiyyətli səxslərilə görüşlər keçirilib, notariat fəaliyyəti ilə bağlı faydalı fikir mübadiləsi aparılıb.



*Beynəlxalq Notariat İttifaqının prezidenti Xose Markeno de Lyano ilə görüş*

# Notariuslar üçün beynəlxalq seminar keçirilib



**Rusiya Federal Notariat Palatasının dəvəti ilə Azərbaycan Notariat Palatasının sədri Hüseyn Məmmədov, Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinin baş məsləhətçisi Zeynəb Dünyamalıyeva və xüsusi notarius Kənan Rəhmanovdan ibarət nümayəndə heyəti Sankt-Peterburq şəhərində "Vərəsəlik: Rusiya və xarici təcrübə" mövzusunda keçirilmiş beynəlxalq seminarda iştirak edib.**

Rusiya Federasiyası subyektlərinin notariat palatalarının, habelə Avstriya, Belorusiya, Qazaxıstan, Moldova, Polşa, Serbiya, Tacikistan notariuslarının qatıldıqları seminarda mövzu ətrafında müzakirələr aparılıb.

Tədbirdə Rusiya Federal Notariat Palatasının prezidenti Konstantin Korsik, Sankt-Peterburq vilayət və şəhər notariat palatalarının prezidentləri, Rusiya Ədliyyə Nazirliyinin nümayəndələri, Rusiya, Sankt-Peterburq və Ural Dövlət Universitetlərinin müəllimləri, Fransa Ali Notariat Şurasının Rusiya üzrə nümayəndəsi Antuan Dejua, Almaniya Federal Notariat Palatasının fəxri notariusu Rixard Bokk çıxış ediblər.

İştirakçılar seminarda öz ölkələrinin təcrübəsi haqqında məlumat verib, Azərbaycanın nümayəndəsi Z.Dünyamalıyeva tərəfindən "Vərəsəlik hüququnun rəsmiləşdirilməsi. Vərəsəlik hüququnun beynəlxalq-hüquqi aspektləri" mövzusunda mühazirə ilə çıxış edilib, suallar cavablandırılıb.

# Ədliyyə Akademiyasında

## ◆ "Hüquqi dəyərlər müqayisəli hüququn diqqət mərkəzində" IX Beynəlxalq Müqayisəli Hüquq Konqres

Dekabrın 2-də Rusiya Federasiyası Hökuməti yanında Qanunvericilik və Müqayisəli Hüquq İnstitutunda "Hüquqi dəyərlər müqayisəli hüququn diqqət mərkəzində" IX Beynəlxalq Müqayisəli Hüquq Konqresi keçirilib.






Hüquq vasitəsilə Demokratiya üzrə Avropa Komissiyası (Avropa Şurasının Venesiya Komissiyası) ilə birlikdə təşkil olunan tədbirdə Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov iştirak edib.

Rusiya, Belarus, Qazaxstan, İtaliya, Fransa, İspaniya, İran, Çin və digər ölkələrin nümayəndələrinin qatıldığı konqres konstitusiya, inzibati, bələdiyyə, cinayət, mülki, maliyyə hüququ daxil olmaqla müqayisəli hüquq, hüquq nəzəriyyəsi, beynəlxalq, regional və milli hüququn aktual mövzularına dair plenar iclas və dəyirmi masalar formatında təşkil olunub.

Tədbir çərçivəsində hüquqi dəyərlərin formalaşması və qorunması, bu dəyərlərin müqayisəli hüququn obyekti kimi anlaşılmasında yeni yanaşmaların konseptuallaşdırılmasına dair dəyirmi masalar keçirilib.

Ölkəmizin nümayəndəsi "Müasir inzibati prosedur: XXI əsrin çağırışları qarşısında modernləşmə istiqamətləri" adlı dəyirmi masada "Publik hüquqi şəxslərin fəaliyyətinin tənzimlənməsinin bəzi məsələləri" mövzusunda məruzə ilə çıxış edib, iştirakçıların suallarını cavablandırıb.

Azərbaycan brendi "ASAN xidmət"in səmərəli fəaliyyəti böyük maraqla qarşılanıb. Bildirilib ki, inzibati icraat sahəsində qanunvericiliyin və ən yaxşı təcrübələrin öyrənilməsi üçün Bakıya səfərlərin təşkil olunması zərurət vardır.

## ◆ "Əqli mülkiyyət hüquqlarının müdafiəsinin təminatı: ixtisaslaşmış məhkəmələrin milli və beynəlxalq təcrübəsi" mövzusunda seminar

**Dekabrın 5-6-da Ədliyyə Akademiyası, Əqli Mülkiyyət Agentliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) birgə təşkilatçılığı ilə "Əqli mülkiyyət hüquqlarının müdafiəsinin təminatı: ixtisaslaşmış məhkəmələrin milli və beynəlxalq təcrübəsi" mövzusunda seminar keçirilib.**

Seminarda ÜƏMT-nin Hüquq İnstitutunun nümayəndəsi xanım Nahal Zebarcadi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimov, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva, Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin idarə heyətinin sədri Kamran İmanov, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev və Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov açılış nitqi ilə çıxış ediblər.

Məruzəçilər seminarın aktual mövzuya - əqli mülkiyyət hüquqlarının müdafiəsinin təminatı, ixtisaslaşmış məhkəmələrin milli və beynəlxalq təcrübəsinə həsr olunduğunu söyləyiblər. Tədbirin ölkə Prezidentinin məhkəmə-hüquq sistemindəki islahatları ilə bağlı olduğu, bir tərəfdən dövlət başçısının məhkəmə-hüquq sistemində, digər tərəfdən isə əqli mülkiyyət (ƏM) sahəsində apardığı islahatların dəstəklənməsi məqsədi daşıdığı bildirilib.

Sonra dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının icrasının ölkəmizdə insan hüquq və azadlıqlarının səmərəli təmin olunmasına mühüm töhfələr verməsi, Azərbaycan Respublikasının Konstitusiyasının 30-cu maddəsində təsbit edilən əqli mülkiyyət hüququnun ölkəmizdə təmin olunması məqsədilə həm qanunvericilikdə, həm





də onların icrası istiqamətində görülən mühüm işlər vurğulanıb. Həmçinin, elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar əqli mülkiyyət məhsullarının cəmiyyətin bütün sahələrində tətbiq olunması, süni intellektin tətbiqinin geniş yayıldığı qeyd olunub.

Cəmiyyət yeni inkişaf mərhələsinə qədəm qoyub və hüquq sahəsində aparılan islahatlar, məhkəmə sistemində çalışan hakimlərin bilik səviyyəsi bu inkişafın tələblərinə cavab verməlidir.

Tədbirdə Milli Məclisin nümayəndələri, hakimlər, vəkillər, dövlət qulluqçuları iştirak ediblər.

Seminarda Haaqa Məhkəməsinin baş hakimi Edqer Brinkmanın "Əqli Mülkiyyət mübahisələri üzrə ixtisaslaşmış məhkəmə orqanlarının yeni formaları", ÜƏMT-nin nümayəndəsi Nahal Zebarcadinin "ÜƏMT-nin fəaliyyəti və ÜƏMT-nin məhkəmələrlə işinin təşkili ilə tanışlıq" və "Beynəlxalq xüsusi hüquqda əqli mülkiyyət sahəsinə aid mübahisələr", Apelyasiya Şurasının sədri Günel Sevdimalıyevanın "Azərbaycanda Əqli Mülkiyyət Agentliyinin Apelyasiya Şurasının və əlaqədar olan məhkəmə qərarlarının icmalı və beynəlxalq təcrübə", Əqli Mülkiyyət Agentliyinin Hüquq, apelyasiya və daxili nəzarət şöbəsinin müdiri İqbal Əsgərovun "Əqli mülkiyyət hüquqlarının pozuntularına qarşı hüquqi müdafiə vasitələri", Əqli Mülkiyyət Agentliyinin Hüquq, apellyasiya və daxili nəzarət şöbəsinin müdiri İqbal Əsgərovun "Əqli mülkiyyət hüquqlarının pozuntularına qarşı hüquqi müdafiə vasitələri" mövzularında məruzələri dinlənilib.

## ◆ "Hüquq təhsili vasitəsilə insan hüquqlarının müdafiəsi: ən yaxşı təcrübələr və standartların təkmilləşdirilməsi" adlı beynəlxalq konfrans

**Ukrayna Milli Hakimlər Məktəbi və Avropa Şurasının birgə təşkilatçılığı ilə dekabrın 9-10-da Kiyevdə "Hüquq təhsili vasitəsilə insan hüquqlarının müdafiəsi: ən yaxşı təcrübələr və standartların təkmilləşdirilməsi" adlı yüksək səviyyəli beynəlxalq konfrans keçirilib.**

Ukrayna Respublikasının Ali Məhkəməsində baş tutan tədbirdə Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov iştirak edib.

Tədbirdə Qərbi və Şərqi Avropanın bir sıra ölkələrindən hakimlərin tədrisini həyata keçirən qurumların nümayəndələri, Avropa Şurasının nümayəndələri və ekspertlər, hakim təlimçilər və alimlər də iştirak ediblər.



Hakimlərin təliminin aktual məsələlərinə dair mövzular üzrə sessiyalar formatında təşkil olunmuş konfransda müxtəlif ölkələrin təhsil müəssisələri tərəfindən keçirilən hakim və hakimliyə namizədlərinin təliminə dair təcrübə və ən yaxşı praktikalarının mübadiləsi, müxtəlif ölkələrin təcrübələrini nəzərə alaraq, hakimlərin hazırlanması üçün yanaşma və metodlarla bağlı geniş peşəkar müzakirə aparılıb.

Elçin Xələfov konfransın birinci sessiyasında "Azərbaycan Respublikasında hakimlərin ilkin və davamlı təliminin vəziyyəti" mövzusunda məruzə ilə çıxış edib, iştirakçıları maraqlandıran sualları cavablandırıb.

Konfrans insan hüquqlarının müdafiəsinin gücləndirilməsi, Avropa İnsan Hüquqları Konvensiyasının və Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının daha yaxşı yerinə yetirilməsi üçün məhkəmə hazırlığının təkmilləşdirilməsinə dair Kiyev tövsiyələrinin qəbulu ilə nəticələnib.

Bu mötəbər tədbirdə iştirak Ədliyyə Akademiyasının elmi əlaqələrinin genişləndirilməsi, Azərbaycan Respublikasında aparılan geniş məhkəmə-hüquq islahatlara dair təcrübənin dünyanın qabaqcıl ekspert və alimlərinə çatdırılması, eyni zamanda, digər ölkələrin müvafiq təcrübələrinin öyrənilməsi istiqamətində faydalı olub.

## İnsan Hüquqları üzrə Avropa Məhkəməsi ilə birgə videokonfrans vasitəsilə təlim






**Ədliyyə Akademiyası tərəfindən insan hüquqları və digər aktual mövzularda davamlı tədris tədbirləri, o cümlədən distant treninq formaları tətbiq olunmaqla videokonfrans vasitəsilə təlimlər təşkil edilir. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi ilə əməkdaşlıqda Avropa İnsan Hüquqları Konvensiyasının müxtəlif maddələri ilə bağlı videokonfransların keçirilməsi mütəmadi xarakter alıb.**

Akademiyada Avropa Məhkəməsi ilə birgə "Avropa İnsan Hüquqları Konvensiyasının 1 saylı Protokolunun 1-ci maddəsi (Mülkiyyət hüququ)" mövzusunda videokonfrans vasitəsilə təlim keçirilib.

Təlimin açılışında çıxış edən Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov səmərəli əməkdaşlıqda keçirilən distant təlimin yaxşı təcrübələrin öyrənilməsi baxımından əhəmiyyətini qeyd edib. O, Akademiya tərəfindən Avropa Şurası, o cümlədən Avropa Məhkəməsi ilə birgə hakim və digər hüquqşünasların İnsan Hüquqları üzrə Avropa Konvensiyasının müxtəlif maddələrinin şərhinə dair mütəmadi təlimlərə cəlb olunduğunu diqqətə çatdırıb.

Tədbirdə apellyasiya və birinci instansiya məhkəmələrindən olmaqla 25 hakim iştirak edib.

Videokonfrans zamanı Avropa İnsan Hüquqları Məhkəməsi Katibliyinin baş hüquqşünası Vüqar Fətəliyevin təqdimatı dinlənilib. V.Fətəliyev Konvensiyanın 1 saylı Protokolunun 1-ci (Mülkiyyət hüququ) və 6-cı maddələrini (Ədalətli məhkəmə araşdırması hüququ) şərh edib, pozitiv və neqativ öhdəliklərdən bəhs edərək həmin maddələr üzrə Avropa Məhkəməsinin bəzi qərarlarını hakimlərin diqqətinə çatdırıb.

## Məhkəmə ekspertizası fəaliyyətinə dair qanunvericilikdəki yeniliklərə dair seminar

**Ölkə Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının icrası çərçivəsində ədliyyə və məhkəmə fəaliyyətini tənzimləyən çoxsaylı yeni qanun layihələri hazırlanaraq dövlətimizin başçısının qanunvericilik təşəbbüsü ilə artıq bir sıra yeni, o cümlədən bu yaxınlarda məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı mühüm qanunlar qəbul olunub.**

Yeni qanunvericilikdəki dəyişikliklərin öyrənilməsi və düzgün tətbiq edilməsi məqsədilə dekabrın 30-da Ədliyyə Nazirliyi tərəfindən aidiyyəti struktur qurumların məsul şəxslərinin və əməkdaşlarının iştirakı ilə "Məhkəmə ekspertiza fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi" mövzusunda seminar keçirilib.

Seminarı giriş nitqi ilə açan Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən özəl ekspertiza institutunun yaradılması ilə bağlı 2020-ci il martın 1-dən qüvvəyə minən qanunvericilikdəki dəyişikliklərin ədalətli məhkəmə araşdırması hüququnun təmin edilməsində, keyfiyyətli hüquqi xidmətlərinin göstərilməsində xüsusi əhəmiyyətini vurğulayıb, yeni qanunların düzgün tətbiqində təlimlərin vacibliyini qeyd edib.



Sonra Nazirliyin Qanunvericilik baş idarəsinin rəis müavini Elçin Nəsibov çıxış edərək məhkəmə ekspertizası sahəsində qanunvericiliyə edilən əsaslı dəyişikliklər barədə məlumat verib. Bildirib ki, həmin dəyişikliklərlə məhkəmə ekspertinə verilən tələblər, məhkəmə ekspertinin fəaliyyətinə xitam verilməsi, attestasiyası, məhkəmə ekspertlərinin reyestri, məhkəmə ekspertizası tədqiqat metodlarının dövlət reyestri, məhkəmə ekspertizasının aparılmasının əsasları və digər məsələlər öz əksini tapıb.

Həmçinin qeyd olunub ki, mühüm yenilikləri nəzərdə tutan bu dəyişikliklər nəticəsində məhkəmə ekspertizasını həyata keçirmək, habelə ekspertizanın keçirilməsini təyin (sifariş) etmək hüququ olan subyektlərin dairəsi genişləndirilir. Ekspertizanın keçirilməsi və ekspert rəyinin verilməsi müddətləri dəqiqləşdirilir.

Dəyişikliklər nəticəsində ölkəmizdə ilk dəfə tətbiq edilən özəl ekspertiza institutu bütün fiziki və ya hüquqi şəxslərə, həmin şəxslərin vəkilləri və nümayəndələrinə imkan verəcək ki, onlar özəl məhkəmə ekspertləri ilə bağlanan müqavilə əsasında məhkəmə ekspertizasını sifariş etsinlər.

Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxslər qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verdikləri təqdirdə Ədliyyə Nazirliyi tərəfindən onlara şəhadətnamə veriləcək və reyestrləri aparılacaq. Şəxs yalnız şəhadətnamə aldıqdan və barəsində məlumat Reyestrə daxil edildikdən sonra məhkəmə eksperti qismində fəaliyyət göstərə biləcəkdir.

Seminarda Məhkəmə ekspertizası mərkəzinin şöbə rəisi Cabir Ahmet "Prosessual qanunvericilikdə son dəyişikliklərə uyğun olaraq məhkəmə ekspertizasının həyata keçirilməsi mexanizmləri" mövzusunda məruzə ilə çıxış edib. O, ekspertiza institutunun keçdiyi tarixi inkişaf yolundan, məhkəmə ekspertizasının müasir imkanlarından, o cümlədən akkreditasiya olunmuş ekspertiza metodlarından bəhs edib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

### "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 19; 2001, N 12, maddə 736; 2004, N 2, maddə 57, N 3, maddə 133, N 8, maddə 599, N 10, maddə 787; 2005, N 8, maddə 686; 2006, N 12, maddə 1005; 2007, N 4, maddə 322; 2009, N 7, maddə 517, N 11, maddə 878; 2010, N 5, maddə 375; 2011, N 2, maddə 71, N 6, maddə 478; 2013, N 11, maddə 1272; 2017, N 11, maddə 1977; 2018, N 2, maddə 148, N 11, maddə 2194, N 12 (I kitab), maddə 2487; 2019, N 4, maddə 580) 15-ci maddəsinin II hissəsinin beşinci abzasına "araşdırılması üçün" sözlərindən sonra "ekspertlərdən və ya" sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 19 noyabr 2019-cu il.*
*N 1694-VQD*

---

### "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 7, maddə 586; 2007, N 1, maddə 1, N 8, maddə 756, N 11, maddələr 1078, 1081; 2008, N 3, maddə 155, N 6, maddə 481, N 8, maddələr 694, 710; 2009, N 6, maddə 399, N 11, maddə 878; 2010, N 3, maddə 171, N 4, maddə 273, N 11, maddə 944; 2011, N 2, maddələr 71, 72; 2012, N 11, maddə 1040; 2015, N 10, maddə 1089; 2016, N 6, maddə 984; 2017, N 5, maddə 729, N 7, maddə 1252; 2018, N 3, maddə 398, N 12 (I kitab), maddə 2473; 2019, N 5, maddə 797) 2.1-ci maddəsində "Dövlət məhkəmə ekspertizası" sözləri "Məhkəmə ekspertizası" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 19 noyabr 2019-cu il.*
*N 1695-VQD*

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 6-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 5, maddə 413; 1999, N 5, maddə 284, N 7, maddə 396, N 10, maddə 570; 2001, N 5, maddə 292, N 6, maddə 379, N 7, maddə 455; 2002, N 1, maddə 4, N 12, maddə 706; 2003, N 6, maddə 278; 2004, N 2, maddə 57, N 3, maddə 133, N 4, maddə 199, N 8, maddələr 597, 598, N 9, maddə 669; 2005, N 1, maddə 7, N 8, maddə 686; 2006, N 1, maddə 4, N 12, maddə 1005; 2007, N 5, maddələr 439, 446, N 7, maddə 712, N 11, maddə 1078, N 12, maddə 1222; 2008, N 3, maddə 163, N 7, maddə 609; 2009, N 2, maddə 46, N 11, maddə 878; 2010, N 7, maddə 596, N 10, maddə 842; 2011, N 4, maddə 265; 2013, N 1, maddə 21; 2014, N 2, maddə 85, N 7, maddələr 782, 784; 2015, N 2, maddə 98, N 4, maddə 346, N 5, maddə 483, N 11, maddə 1286; 2016, N 6, maddə 1004, N 11, maddə 1789, N 12, maddə 2033; 2017, N 6, maddə 1034, N 7, maddə 1305, N 11, maddə 1965; 2018, N 1, maddə 12, N 3, maddə 395, N 5, maddə 888, N 7, (I kitab), maddə 1442; 2019, N 1, maddə 22, N 7, maddə 1206) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 79-cu maddənin üçüncü hissəsinin yeddinci abzasında "verir" sözündən sonra ", verilmiş izahların aktuallığını təmin etmək məqsədilə onların yenilənməsini təşkil edir" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 79-1-ci maddə əlavə edilsin:

**"Maddə 79-1. Ali Məhkəmə tərəfindən vahid məhkəmə təcrübəsinin formalaşdırılması**

Vahid məhkəmə təcrübəsi məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və ədalət mühakiməsi həyata keçirilərkən maddi və prosessual hüquq normalarının eyni cür tətbiq edilməsini təmin etmək məqsədilə formalaşdırılır.

Ali Məhkəmə hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsini baxdığı işlər üzrə məhkəmə kollegiyalarının və Ali Məhkəmənin Plenumunun qərarları, habelə Ali Məhkəmənin Plenumunun məhkəmə təcrübəsinə dair verdiyi izahlar vasitəsilə formalaşdırır.

Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi nəticəsində məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanlar müəyyən edildikdə Ali Məhkəmənin Plenumu məsələyə baxır və belə nöqsanlara yol verilməməsi üçün müvafiq izahı nəzərdə tutan qərar qəbul edir.

Ali Məhkəmə Plenumunun məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanlarla bağlı qərarı qəbul edildikdən sonra nöqsanların müəyyən edildiyi sahədə məhkəmələrin fəaliyyətinin monitorinqi təşkil edilir. Monitorinq ən azı 1 il müddətində həyata keçirilir. Monitorinqin aparılması qaydasını Ali Məhkəmənin təklifləri əsasında Məhkəmə-Hüquq Şurası müəyyən edir.

Monitorinqin nəticələri hakimlərin fəaliyyətinin Məhkəmə-Hüquq Şurası tərəfindən qiymətləndirilməsi zamanı nəzərə alınır.";

1.3. 80-ci maddəyə aşağıdakı məzmunda onuncu hissə əlavə edilsin:

"Ali Məhkəmənin Plenumu onun sonuncu iclasından ötən dövr ərzində Azərbaycan Respublikası Cinayət-Prosessual, Mülki Prosessual və

İnzibati Prosessual məcəllələrində müəyyən edilmiş qaydada müvafiq kollegiyaların bütün hakimlərindən ibarət tərkibdə qəbul etdiyi qərarları (qərardadları) nəzərdən keçirir və Ali Məhkəmənin Plenumunun məhkəmə təcrübəsinə dair məsələlər üzrə mövcud izahına dəyişikliklər edir və ya yeni izah verir.".

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 29 noyabr 2019-cu il.*
*N 1708-VQD*

## "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 7; 2004, N 2, maddə 57, N 3, maddə 133; 2006, N 11, maddə 928; 2007, N 1, maddə 4, N 3, maddə 211; 2018, N 2, maddə 147) aşağıdakı dəyişikliklər edilsin:

1.1. Qanunun adında "Dövlət məhkəmə ekspertizası" sözləri "Məhkəmə ekspertizası" sözləri ilə əvəz edilsin;

1.2. Preambulanın birinci abzasında "Dövlət məhkəmə ekspertizası fəaliyyətinin (bundan sonra - məhkəmə ekspertizası fəaliyyəti)" sözləri "məhkəmə ekspertizası fəaliyyətinin" sözləri ilə əvəz edilsin;

1.3. 1-ci maddə üzrə:

1.3.1. dördüncü abzasda "marağı olmayan" sözlərindən sonra ", məhkəmə eksperti şəhadətnaməsi almış" sözləri əlavə edilsin;

1.3.2. beşinci abzasda "təyin" sözündən sonra "(sifariş)" sözü əlavə edilsin;

1.3.3. yeddinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"məhkəmə ekspertizası tədqiqatının metodu - məhkəmə ekspertizasının predmeti ilə bağlı işin halları barədə informasiya daşıyan maddi obyektlər, hadisələr və proseslərin tədqiqi zamanı tətbiq edilən üsul və vasitələr sistemidir.";

1.4. 6-cı maddənin birinci hissəsinin birinci cümləsində, 8-ci maddənin üçüncü hissəsinin birinci cümləsində, dördüncü və beşinci hissələrində, 9-cu maddənin ikinci hissəsinin üçüncü abzasında, üçüncü hissəsinin üçüncü abzasında, 10-cu maddənin birinci hissəsinin yeddinci abzasında, 12-ci maddənin birinci hissəsinin doqquzuncu abzasında, üçüncü hissəsinin ikinci abzasında, dördüncü hissəsində, beşinci hissəsinin səkkizinci abzasında, 13-cü maddənin birinci hissəsinin ikinci abzasında, 16-cı maddədə, 17-ci maddədə, 18-ci maddənin ikinci hissəsinin ikinci cümləsində, 19-cu maddənin ikinci, üçüncü hissələrində və altıncı hissəsinin birinci cümləsində (birinci halda), 20-ci maddənin birinci hissəsində, 24-cü maddənin üçüncü hissəsinin ikinci cümləsində, 25-ci maddənin birinci və dördüncü hissələrində, 26-cı maddənin ikinci hissəsinin dördüncü abzasında, üçüncü hissəsinin üçüncü cümləsində "təyin" sözündən sonra "(sifariş)" sözü əlavə edilsin;

1.5. 8-ci maddənin üçüncü hissəsinin ikinci cümləsinə "(qərardadda)" sözündən sonra "və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilədə" sözləri əlavə edilsin;

1.6. 9-cu maddə üzrə:

1.6.1. birinci hissədə "(qərardadı) aldıqdan"

sözlərindən sonra "və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilə bağlandıqdan" sözləri əlavə edilsin;

1.6.2. ikinci hissənin ikinci abzasında "icra edilmədən" sözlərindən sonra "və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə rəsmi müraciəti təmin edilmədən" sözləri əlavə edilsin;

1.6.3. ikinci hissənin dördüncü abzasında "(qərardadda)" sözündən sonra "və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilədə" sözləri əlavə edilsin;

1.6.4. üçüncü hissənin ikinci abzasında "(qərardad)" sözündən sonra "və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilə" sözləri əlavə edilsin;

1.7. 10-cu maddənin birinci hissəsi üzrə:

1.7.1. ikinci abzasda "(qərardadı) aldıqdan" sözlərindən sonra "və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilə bağlandıqdan" sözləri əlavə edilsin;

1.7.2. dördüncü abzasda "qərarda" sözündən sonra "(qərardadda) və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilədə" sözləri əlavə edilsin;

1.8. 11-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 11. Məhkəmə eksperti**

Ali təhsilli və müəyyən ekspertiza ixtisası üzrə xüsusi biliklərə malik Azərbaycan Respublikasının vətəndaşı məhkəmə eksperti ola bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxs, din xadimi, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab olunmuş, cinayət törətdiyinə görə məhkum olunmuş, barəsində ekspertiza fəaliyyəti ilə məşğul olma hüququndan məhrum etmə və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı çıxarılmış, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş şəxs məhkəmə eksperti ola bilməz.

Bu maddənin birinci və ikinci hissələrində göstərilən tələblərə cavab verən şəxs məhkəmə eksperti qismində fəaliyyət göstərmək üçün məhkəmə eksperti şəhadətnaməsini (bundan sonra - şəhadətnamə) almalıdır.

Məhkəmə ekspertizası idarələrində fəaliyyət göstərən ekspertlərə dövlət məhkəmə eksperti şəhadətnaməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

Bu maddənin birinci və ikinci hissələrində göstərilən tələblərə cavab verən və özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxs özəl məhkəmə eksperti şəhadətnaməsini almaq üçün müvafiq dövlət rüsumunun ödənildiyini təsdiq edən sənədlə yanaşı aşağıdakı tələblərdən birinə cavab verdiyini təsdiq edən sənədləri təqdim etməlidir:

1) ekspert qismində fəaliyyət göstərmək istədiyi ixtisas üzrə ən azı 10 il işlədiyini;

2) ekspert qismində fəaliyyət göstərmək istədiyi ixtisas üzrə fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsinin olduğunu;

3) xüsusi biliklərə malik olduğunu təsdiq edən beynəlxalq səviyyədə tanınan sənədlərinin (diplom, sertifikat və sair) mövcudluğunu.

Şəxsin xüsusi biliklərə malik olduğunu təsdiq edən beynəlxalq səviyyədə tanınan sənədlərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir. Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxs şəhadətnamə almaq üçün həmin siyahıda olmayan sənəd təqdim etdikdə, həmin sənədin siyahıya daxil edilməsi məsələsi araşdırılır və bu sənəd siyahıya daxil edildiyi halda ona şəhadətnamə verilməsi üçün əsas qismində çıxış edir.

Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxs müvafiq icra hakimiyyəti orqanı tərəfindən internet informasiya ehtiyatı vasitəsilə təşkil edilən məhkəmə ekspertizası fəaliyyətinə dair qanunvericiliyin ümumi tələbləri, ekspert rəyinin tərtib edilməsi qaydaları və etik davranış kodeksinin müddəalarına dair icbari təlimdə iştirak etməlidir. Təlimin keçirilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Müvafiq icra hakimiyyəti orqanı özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxslərlə müsahibə keçirir.

Özəl məhkəmə ekspertlərinə şəhadətnamələr müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

Şəhadətnamənin verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Şəhadətnamə almış şəxs barədə ətraflı məlumat müvafiq icra hakimiyyəti orqanı tərəfindən dərhal Məhkəmə Ekspertləri Reyestrinə daxil edilir. Şəxs yalnız şəhadətnamə aldıqdan və barəsində məlumat Reyestrə daxil edildikdən sonra məhkəmə eksperti qismində fəaliyyət göstərə bilər.

Reyestrə daxil edilmiş şəxslər məhkəmə ekspertizasının aparılması və ekspert rəyinin hazırlanması ilə əlaqədar məhkəmə ekspertləri üçün bu Qanunla və müvafiq prosessual qanunvericiliklə nəzərdə tutulmuş bütün hüquqlardan istifadə edir, vəzifələri yerinə yetirirlər.

Məhkəmə eksperti yalnız şəhadətnamədə qeyd edilən məhkəmə ekspertizası ixtisası (ixtisasları) üzrə ekspert rəyi verə bilər.

Məhkəmə eksperti müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən məhkəmə ekspertinin etik davranış kodeksinin tələblərinə riayət etməlidir.

Müvafiq icra hakimiyyəti orqanlarının məhkəmə ekspertizası idarələrinin ekspertlərinə bu orqanların işçiləri üçün qanunla müəyyən edilmiş qaydada xüsusi rütbələr verilir.

Müvafiq icra hakimiyyəti orqanı məhkəmə ekspertlərinin bu Qanunun tələblərinə riayət etməsinə nəzarət edir.";

1.9. aşağıdakı məzmunda 11-1 - 11-5-ci maddələr əlavə edilsin:

**"Maddə 11-1. Məhkəmə ekspertinin fəaliyyətinə xitam verilməsi**

Aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanı şəhadətnaməni ləğv edərək məhkəmə ekspertinin fəaliyyətinə xitam verir:

şəxs öz arzusu ilə şəhadətnamənin ləğv olunması barədə yazılı ərizə verdikdə;

şəhadətnamə almaq üçün təqdim edilən sənədlərdə bilərəkdən təhrif olunmuş məlumatların qeyd edildiyi aşkar olunduqda;

şəhadətnamə aldıqdan sonra 5 il ərzində məhkəmə eksperti qismində fəaliyyət göstərmədikdə;

attestasiyadan keçə bilmədikdə və ya attestasiya keçməkdən yayındıqda;

qanunvericiliyin tələblərini kobud və ya mütəmadi pozmaqla ekspertiza apardıqda;

ekspertin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması və ya fəaliyyət qabiliyyəti olmayan şəxs hesab olunması barədə qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;

ekspertin Azərbaycan Respublikasının vətəndaşlığına xitam verildikdə və ya ekspert Azərbaycan Respublikasından daimi yaşayış üçün başqa ölkəyə köçüb getdikdə;

ekspert məhkum edildikdə, onun barəsində ekspertiza fəaliyyəti ilə məşğul olma hüququndan məhrum etmə və ya tibbi xarakterli məcburi tədbirlər tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;

ekspert barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verildikdə;

ekspert vəfat etdikdə, məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə.

Müvafiq icra hakimiyyəti orqanı şəhadətnaməsi ləğv edilmiş ekspertin adını Məhkəmə Ekspertləri Reyestrdən çıxarır.

Şəhadətnaməsi ləğv edilmiş ekspertə qəbul edilmiş qərarla bağlı üç iş günü müddətində məlumat verilir.

**Maddə 11-2. Məhkəmə ekspertlərinin attestasiyası**

Məhkəmə ekspertləri 5 ildə bir dəfədən çox olmayaraq attestasiyadan keçirilirlər. 20 ildən artıq müddətdə ekspert qismində fəaliyyət göstərən şəxslər attestasiyadan azaddırlar.

Attestasiya nəticəsində məhkəmə ekspertizası idarələrinin ekspertlərinə ixtisaslaşmasından və hazırlıq səviyyəsindən asılı olaraq ixtisas dərəcəsi verilir.

Attestasiyanın keçirilməsi və ixtisas dərəcəsinin verilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

**Maddə 11-3. Məhkəmə Ekspertlərinin Reyestri**

Müvafiq icra hakimiyyəti orqanı məhkəmə ekspertizası idarələrinin ekspertləri və özəl məhkəmə ekspertləri barədə məlumatları Məhkəmə Ekspertlərinin Reyestrinə daxil edir.

Reyestrin aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Reyestr açıqdır, müvafiq icra hakimiyyəti orqanının rəsmi internet səhifəsində yerləşdirilir və məlumatlar daim yenilənir.

Reyestrə daxil edilməyən şəxslərin məhkəmə ekspertizası fəaliyyəti ilə məşğul olması qadağandır və qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

**Maddə 11-4. Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestri**

Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestri müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır.

Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestrinin aparılması və yeni metodların həmin reyestrə daxil edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Ekspertlər məhkəmə ekspertizasının aparıl-

ması zamanı Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestrinə daxil olan tədqiqat metodlarından istifadə edir. Ekspert Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestrinə daxil olmayan metoddan yalnız həmin metodun aşağıdakı bütün şərtlərə cavab verdiyini ekspert rəyində əsaslandırmaqla istifadə edə bilər:

1) qanunda nəzərdə tutulmuş norma və prinsiplərə zidd deyildir;

2) elmi cəhətdən əsaslandırılmışdır;

3) insanların həyat və sağlamlığı və ətraf mühit üçün təhlükəsizdir.

**Maddə 11-5. Məhkəmə ekspertizasının metodik fondu**

Məhkəmə ekspertizalarının elmi-metodik materiallarından ibarət xüsusi fond yaradılır. Həmin materialların elektron nüsxələri fonda daxil edilir.

Fondun yaradılması və istifadəsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.";

1.10. 12-ci maddənin beşinci hissəsi üzrə:

1.10.1. ikinci abzasda "idarəsinin" sözündən sonra "ekspertlərinə həmin idarənin" sözləri əlavə edilsin;

1.10.2. üçüncü abzasda "başqa" sözündən əvvəl "məhkəmə ekspertizası idarəsinin ekspertlərinə" sözləri əlavə edilsin;

1.11. 13-cü maddənin birinci hissəsinin yeddinci abzasında "təhqiqat aparan şəxsə, müstəntiqə və ya məhkəməyə (hakimə)" sözləri "məhkəmə ekspertizasını təyin (sifariş) etmiş orqan və ya şəxsə" sözləri ilə əvəz edilsin;

1.12. 19-cu maddə üzrə:

1.12.1. altıncı hissənin birinci cümləsində "işləyib hazırlamaq" sözlərindən sonra ", ekspertizanın aparılmasının ümumi müddəti daxilində ayrı-ayrı tədqiqatların icra müddətlərini təyin etmək və onlara əməl olunmasına nəzarət etmək" sözləri əlavə edilsin;

1.12.2. dördüncü-səkkizinci hissələr müvafiq olaraq beşinci-doqquzuncu hissələr hesab edilsin və aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"Şəxsin anlaqlı olub-olmaması ilə bağlı məhkəmə-psixiatrik ekspertizasının aparılması üçün ən azı üç məhkəmə ekspertindən ibarət tərkibdə komissiya təşkil edilir.";

1.13. 21-ci və 22-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 21. Məhkəmə ekspertizasının aparılmasının əsasları**

Məhkəmə ekspertizası Azərbaycan Respublikasının prosessual qanunvericiliyində nəzərdə tutulmuş hallarda təhqiqatçının, müstəntiqin və ya prokurorun qərarı, yaxud məhkəmənin (hakimin) qərarı (qərardadı) ilə təyin edilir. Təhqiqatçının, müstəntiqin və ya prokurorun qərarı, yaxud məhkəmənin (hakimin) qərarı (qərardadı) ilə təyin edilmiş ekspertiza məhkəmə ekspertizası idarələrinin ekspertləri tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının Mülki Prosessual, İnzibati Prosessual və İnzibati Xətalar məcəllələrində nəzərdə tutulmuş hallarda fiziki və ya hüquqi şəxslər, həmin şəxslərin vəkilləri və nümayəndələri (qanuni nümayəndələri) məhkəmə ekspertizasının aparılmasını sifariş vermək üçün məhkəmə ekspertizası idarələrinə və ya özəl məhkəmə ekspertlərinə rəsmi müraciət etmək hüququna malikdir. Bu halda məhkəmə ekspertizası həmin şəxslərlə məhkəmə ekspertizası idarəsinin rəhbəri və ya özəl məhkəmə ekspertləri arasında bağlanan müqavilə əsasında məhkəmə ekspertizasını sifariş edən şəxslərin hesabına həyata keçirilir. Müqavilədə ekspertin bilə-bilə yalan rəy verməyə görə məsuliyyət daşıması barədə məlumatlandırıldığı onun imzası ilə təsdiq edilməlidir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əsasən cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildiyi halda şübhəli, təqsirləndirilən şəxs və ya onların müdafiəçisi, yaxud mülki cavabdeh məhkəmə ekspertizasının aparılmasını məhkəmə ekspertizası idarələrinə sifariş vermək üçün rəsmi müraciət etmək hüququna malikdir.

**Maddə 22. Məhkəmə ekspertizasının aparılması**

Məhkəmə ekspertizasını təyin (sifariş) etmiş orqan və ya şəxs tədqiqatın aparılması və ekspert rəyinin verilməsi üçün suallar siyahısını, tədqiqat obyektləri və iş üzrə materialları məhkəmə ekspertizası idarəsinə və ya özəl məhkəmə ekspertinə təqdim edir.

Məhkəmə ekspertizasını təyin (sifariş) etmiş orqan və ya şəxs Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müqayisəli tədqiqat üçün nümunələr götürür və onları işə əlavə edir. Nümunənin götürülməsi məhkəmə ekspertizası fəaliyyətinin

bir hissəsidirsə, bu hərəkət məhkəmə ekspertizasını aparan ekspert tərəfindən həyata keçirilir.

Tədqiqat prosesində ekspert tərəfindən eksperimental nümunələr hazırlana bilər və bu hal ekspertin rəyində göstərilməlidir. Ekspertizanı təyin etmiş orqan və ya şəxs bu cür nümunələrin hazırlanmasında iştirak edə bilər və onun bu hərəkəti tərtib etdiyi protokolda əks etdirilir.

Məhkəmə ekspertizasının aparılması müddətləri Azərbaycan Respublikasının Cinayət-Prosessual, Mülki Prosessual və İnzibati Xətalar məcəllələrinə müvafiq olaraq müəyyən edilir.";

1.14. 22-1-ci maddə ləğv edilsin;

1.15. 23-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 23. Məhkəmə ekspertizası fəaliyyətinin təşkili**

Məhkəmə ekspertlərinin fəaliyyəti müvafiq icra hakimiyyəti orqanının məhkəmə ekspertizası idarələrində, elmi müəssisə və təşkilatlarda, ali təhsil müəssisələrində, "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiyadan keçmiş sınaq laboratoriyalarında, özəl hüquqi şəxslərdə, habelə özəl məhkəmə eksperti tərəfindən ayrıca şəkildə təşkil edilə bilər.

Məhkəmə-tibb (məhkəmə-psixiatriya), məhkəmə-ballistik, məhkəmə partlayış-texniki, pul nişanları və qiymətli kağızların, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, güclü təsir edən və zəhərli maddələrin, dərman vasitələrinin məhkəmə ekspertizaları yalnız məhkəmə ekspertizası idarələri tərəfindən həyata keçirilir.

Məhkəmə ekspertizası fəaliyyətini həyata keçirən şəxslər və qurumlar məhkəmə ekspertizasının aparılması üzrə fəaliyyətini ekspert təcrübəsinin ümumiləşdirilməsi, ekspertlərin peşəkar hazırlığı və onların ixtisaslaşdırılması, o cümlədən ekspert praktikasının vahid elmi-metodik üsullarla öyrənilməsi əsasında həyata keçirirlər.

Məhkəmə ekspertizası idarələri məhkəmə ekspertlərinə metodik köməklik göstərir.

Məhkəmə ekspertizası idarələrində məhkəmə ekspertizası fəaliyyəti ilə əlaqədar göstərilən xidmətlərə görə ödənilən haqqın məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.";

1.16. 43-cü maddədə "vəzifəli şəxslər və vətəndaşlar" sözləri "şəxslər" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*
*N 1709-VQD*

## "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanununun 2020-ci il martın 1-dən tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. iki ay müddətində:

1.1.1. "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin altıncı hissəsinin birinci cümləsinə uyğun olaraq, özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxsin xüsusi biliklərə malik olduğunu təsdiq edən beynəlxalq səviyyədə tanınan sənədlərin siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.2. həmin Qanunun 11-ci maddəsinin onuncu hissəsinə uyğun olaraq, məhkəmə eksperti şəhadətnaməsinin verilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.1.3. həmin Qanunun 11-2-ci maddəsinin üçüncü hissəsinə uyğun olaraq, məhkəmə ekspertlərinin attestasiyasının keçirilməsi və ixtisas dərəcəsinin verilməsi qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.1.4. həmin Qanunun 11-3-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq, Məhkəmə Ekspertlərinin Reyestrinin aparılması qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.1.5. həmin Qanunun 23-cü maddəsinin beşinci hissəsinə uyğun olaraq, məhkəmə ekspertizası idarələrində məhkəmə ekspertizası fəaliyyəti ilə əlaqədar göstərilən xidmətlərə görə ödənilən haqqın məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.1.6. həmin Qanunun 11-ci maddəsinin on dördüncü hissəsinə uyğun olaraq, məhkəmə ekspertinin etik davranış kodeksini təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.7. həmin Qanunun 11-4-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq, Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestrinin aparılması və yeni metodların həmin reyestrə daxil edilməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.8. həmin Qanunun 11-5-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, məhkəmə ekspertizasının metodik fondunun yaradılması və istifadəsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 31; 2001, N 6, maddə 415; 2006, N 12, maddə 1034; 2007, N 3, maddə 224; 2011, N 10, maddə 889; 2014, N 4, maddə 370) aşağıdakı dəyişikliklər edilsin:

2.1. Fərmanın adında, preambulasında, birinci hissəsinin ikinci və dördüncü abzaslarında "Dövlət məhkəmə" sözləri "Məhkəmə" sözü ilə əvəz edilsin;

2.2. həmin Fərmanın 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin altıncı hissəsinin birinci cümləsində, onuncu hissəsində, on dördüncü hissəsində, 11-2-ci maddəsinin üçüncü hissəsində, 11-3-cü maddəsinin ikinci hissəsində, 11-4-cü maddəsinin ikinci hissəsində, 11-5-ci maddəsinin ikinci hissəsində, 23-cü maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.2. həmin Qanunun 11-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini tabeliyində olan məhkəmə ekspertizası idarələrinin ekspertlərinə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirirlər;

2.3. həmin Qanunun 11-ci maddəsinin yeddinci hissəsinin birinci və ikinci cümlələrində, səkkizinci və doqquzuncu hissələrində, on birinci hissəsinin birinci cümləsində, 11-1-ci maddəsinin ikinci hissəsində, 11-3-cü maddəsinin birinci və üçüncü hissələrində, 11-4-cü maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbay-

can Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

2.4. həmin Qanunun 11-ci maddəsinin on beşinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini tabeliyində olan məhkəmə ekspertizası idarələrinin ekspertlərinə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirirlər;

2.5. həmin Qanunun 11-ci maddəsinin on altıncı hissəsində və 11-1-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini tabeliyində olan məhkəmə ekspertizası idarələrinin ekspertlərinə münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, tabeliyində olan məhkəmə ekspertizası idarəsinin ekspertlərinə və özəl məhkəmə ekspertlərinə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirirlər;

2.6. həmin Qanunun 23-cü maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini məhkəmə-tibb (məhkəmə-psixiatriya) ekspertizası sahəsində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, məhkəmə ekspertizasının digər sahələrində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, ilkin və əlavə məhkəmə-daktiloskopik, məhkəmə tibbi-genetik, məhkəmə partlayış-texniki və məhkəmə-ballistik ekspertizaları sahəsində isə həmçinin Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

2.7. həmin Qanunun 33-cü maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

2.8. həmin Qanunun 34-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Ədliyyə Nazirliyi birgə həyata keçirirlər;

2.9. həmin Qanunun 39-cu maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının və 40-cı maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi və Daxili İşlər Nazirliyi həyata keçirirlər.".

3. Bu Fərmanın 2-ci hissəsi 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 18 dekabr 2019-cu il*
*N 883*

## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 4, maddə 323, N 12, maddə 1034;

2007, N 11, maddə 1105, N 12, maddə 1246; 2009, N 7, maddə 533, N 8, maddə 627, N 10, maddə 773, N 12, maddələr 983, 988; 2010, N 2, maddə 83, N 4, maddə 292, N 11, maddə 966; 2011, N 1, maddə 18, N 2, maddə 85, N 4, maddə 281, N 6, maddə 497, N 10, maddə 894, N 11, maddə 993; 2012, N 10, maddə 950; 2014, N 6, maddə 627, N 7, maddə 820, N 9, maddə 1029; 2016, N 1, maddə 77; 2017, N 2, maddə 184, N 10, maddə 1784; 2018, N 6, maddə 1205, N 7 (I kitab), maddə 1480; 2019, N 3, maddə 431, N 5, maddə 860, N 6, maddə 1044) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 8.15-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"8.15. tabeliyində olan məhkəmə ekspertizası idarəsində məhkəmə ekspertizası fəaliyyətini təşkil edir;";

1.2. aşağıdakı məzmunda 8.15-1-ci, 8.15-2-ci və 9.32-2-ci yarımbəndlər əlavə edilsin:

"8.15-1. özəl məhkəmə eksperti şəhadətnaməsini verir;

8.15-2. Məhkəmə Ekspertlərinin Reyestrini, Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestrini və Məhkəmə Ekspertizasının Elmi-Metodiki Fondunu aparır;";

"9.32-2. Məhkəmə Ekspertlərinin Reyestrini, Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestrini və Məhkəmə Ekspertizasının Elmi-Metodiki Fondunu aparmaq;";

1.3. 9.33-cü yarımbənddə "məhkəmə ekspertizası" sözlərindən əvvəl "tabeliyində olan məhkəmə ekspertizası idarəsində" sözləri əlavə edilsin;

1.4. aşağıdakı məzmunda 9.33-1 və 10.5-1-ci yarımbəndlər əlavə edilsin:

"9.33-1. tabeliyində olan məhkəmə ekspertizası idarəsinin ekspertlərinin və özəl məhkəmə ekspertlərinin "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət etməsinə nəzarət etmək;";

"10.5-1. tabeliyində olan məhkəmə ekspertizası idarəsinin ekspertlərinə və özəl məhkəmə ekspertlərinə məhkəmə eksperti şəhadətnamələri vermək, qanunla müəyyən edilmiş hallarda həmin şəhadətnamələri ləğv etmək;".

2. Bu Fərman 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 18 dekabr 2019-cu il*
*N 884*

---

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 17, N 5, maddə 323; 2002, N 5, maddə 236; 2003, N 1, maddələr 23, 24, N 6, maddə 279; 2004, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə

761; 2005, N 4, maddələr 277, 278; 2006, N 2, maddə 64, N 12, maddə 1006; 2007, N 1, maddələr 3, 4, N 2, maddə 68, N 5, maddə 439, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756; 2008, N 6, maddə 462, N 7, maddə 602, N 12, maddə 1046; 2009, N 6, maddə 402; 2010, N 2, maddə 75, N 4, maddə 276; 2011, N 6, maddələr 471, 476, N 7, maddələr 583, 619, N 12, maddələr 1096, 1105; 2012, N 5, maddə 411, N 6, maddə 511; 2013, N 5, maddə 472, N 6, maddə 625, N 11, maddələr 1266, 1307; 2015, N 6, maddə 677, N 12, maddə 1435; 2016, N 5, maddə 836, N 6, maddə 1016, N 11, maddələr 1761, 1763, N 12, maddə 2047; 2017, N 2, maddə 155, N 4, maddə 523, N 5, maddələr 706, 750, N 11, maddələr 1935, 1975; 2018, N 5, maddə 879, N 8, maddə 1672, N 11, maddələr 2209, 2225, N 12 (I kitab), maddələr 2524, 2534; 2019, N 1, maddə 23, N 5, maddələr 792, 812, N 7, maddə 1197) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 63.1-ci maddədə "və məhkəmə tərəfindən təyin edilən" sözləri ", məhkəmə tərəfindən təyin edilən və ya işdə iştirak edən şəxslərlə ekspertizanın aparılması barədə müqavilə bağlamış" sözləri ilə əvəz edilsin;

1.2. 97.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İşdə iştirak edən şəxsin vəsatəti rədd edildikdə məhkəmə bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.";

1.3. aşağıdakı məzmunda 97.4-1-ci maddə əlavə edilsin:

"97.4-1. İşdə iştirak edən şəxslər ekspert tədqiqatının obyekti kimi əşya və sənədləri təqdim etmək hüququna malikdirlər. Məhkəmə təqdim edilmiş əşya və sənədləri ekspert tədqiqatının obyekti kimi qəbul etmədikdə bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.";

1.4. 99-cu maddə üzrə:

1.4.1. 99.1-ci maddənin ikinci cümləsində "Məhkəmə" sözündən sonra "və işdə iştirak edən şəxslər" sözləri əlavə edilsin;

1.4.2. 99.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"99.2. Ekspertiza məhkəmə ekspertizası idarəsinin ekspertləri və ya özəl məhkəmə ekspertləri tərəfindən keçirilir. Ekspertizanın keçirilməsi bir neçə ekspertə həvalə edilə bilər.";

1.4.3. 99.3-cü maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Bu zaman işdə iştirak edən şəxslər tətbiq edilmiş tədqiqat üsullarının mahiyyətinin və alınmış nəticələrin izahını ekspertdən tələb edə və ekspertə izahlar verə bilərlər.";

1.5. 101-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 101. Ekspert rəyi**

101.1. Ekspert ekspertiza təyin edilməsi haqqında məhkəmənin qərardadının məhkəmə ekspertizası idarəsinə daxil olduğu gündən 1 ay, bu Məcəllənin 172.2-ci maddəsində nəzərdə tutulmuş işlərə münasibətdə isə 10 gündən gec olmayaraq yazılı formada rəy verir, onu öz imzası ilə təsdiq edir və dərhal məhkəməyə göndərir. Bu Məcəllənin 172.3-cü maddəsində nəzərdə tutulmuş işlərə münasibətdə isə ekspert rəyi 3 günədək müddətdə verilir.

101.2. Ekspertizanın aparılmasını bu Məcəllənin 101.1-ci maddəsində göstərilən müddətlərdə təmin etmək mümkün olmadıqda, məhkəmə ekspertizası idarəsinin rəhbəri tərəfindən əsaslandırılmış səbəblər göstərilməklə bu barədə məhkəməyə dərhal məlumat verilir. Bu halda tədqiqatların mürəkkəblik dərəcəsi nəzərə alınmaqla ekspertizanın aparılması müddəti məhkəmə ilə yazılı formada razılaşdırılır.

101.3. Ekspert rəy verilməsi üçün əlavə tədqiqat materiallarının təqdim edilməsinə zərurət olduğunu müəyyən etdikdə, ekspertiza təyin edilməsi haqqında məhkəmənin qərardadının məhkəmə ekspertizası idarəsinə daxil olduğu vaxtdan 5 gündən gec olmayaraq bu barədə məhkəməyə vəsatət göndərir. Vəsatətdə tələb olunan tədqiqat materiallarının dəqiq və tam siyahısı göstərilir.

101.4. Məhkəmə tərəfindən ekspertin həmin vəsatətinə 3 gün müddətində baxılır və əlavə tədqiqat materiallarının əldə edilməsi müəyyən vaxt tələb etdikdə məhkəmə ekspertizası idarəsinin rəhbərinə məlumat verilməklə bu Məcəllənin 101.1-ci maddəsində nəzərdə tutulan müddətlər uzadılır.

101.5. Ekspertin həmin vəsatəti bu Məcəllənin

101.4-cü maddəsində nəzərdə tutulan müddətdə təmin edilmədikdə məhkəmə ekspertizası idarəsinin rəhbəri ekspertiza təyin edilməsi haqqında məhkəmənin qərardadını icra olunmadan geri qaytarmaq hüququna malikdir.

101.6. Ekspert rəyində aparılmış tədqiqatların müfəssəl təsviri, onlara əsasən çıxarılmış nəticələr və məhkəmə tərəfindən qoyulmuş suallara əsaslandırılmış cavablar verilməlidir. Əgər ekspert ekspertiza apararkən iş üçün əhəmiyyəti olan, haqqında sual qoyulmayan halları müəyyən edirsə, o, bu hallar barədə mülahizələrini öz rəyinə daxil etməyə haqlıdır.

101.7. Ekspertin rəyi məhkəmədə tədqiq olunur və digər sübutlarla yanaşı qiymətləndirilir.

101.8. Bu Məcəllənin 101.1-ci və 101.2-ci maddələrində nəzərdə tutulmuş müddətlərə riayət etmədikdə məhkəmə ekspertizası idarəsi məhkəmə tərəfindən yüz manat məbləğində cərimə edilə bilər.";

1.6. aşağıdakı məzmunda 101-1-ci və 102.3-cü maddələr əlavə edilsin:

**"Maddə 101-1. İşdə iştirak edən şəxslərin təşəbbüsü ilə ekspertizanın aparılması**

101-1.1. İşdə iştirak edən şəxslər onların mənafelərinə xidmət edə biləcək halların müəyyən edilməsi üçün öz təşəbbüsləri ilə ekspertizanın aparılmasını sifariş vermək üçün məhkəmə ekspertizası idarəsinə və ya özəl məhkəmə ekspertinə rəsmi müraciət etmək hüququna malikdirlər.

101-1.2. İşdə iştirak edən şəxsin sifarişi ilə ekspertiza həmin şəxslə məhkəmə ekspertizası idarəsinin rəhbəri və ya özəl məhkəmə eksperti arasında bağlanan müqavilə əsasında ekspertizanı sifariş edən şəxsin hesabına həyata keçirilir. Müqavilədə ekspertin bilə-bilə yalan rəy verməyə görə məsuliyyət daşıması barədə məlumatlandırıldığı onun imzası ilə təsdiq edilməlidir. Ekspertizanı sifariş etmiş şəxs ekspertə suallar siyahısını və tədqiqat üçün obyektləri verir.

101-1.3. Ekspert ekspertizanı sifariş etmiş şəxsə müqavilədə göstərilən müddətdə yazılı rəy verir. Ekspertiza aparmış ekspertlərin təqdim edilmiş rəyləri məhkəmə tərəfindən materiallara əlavə edilir və digər sübutlarla yanaşı qiymətləndirilir.";

"102.3. Məhkəmə işdə iştirak edən şəxslərin vəsatəti ilə əlavə və ya təkrar ekspertiza təyin edə bilər. İşdə iştirak edən şəxsin vəsatəti rədd edildikdə məhkəmə bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.";

1.7. 132-ci maddəyə "ərizəsi üzrə" sözlərindən sonra ", habelə bu Məcəllənin 101.3-cü maddəsində nəzərdə tutulan ekspertin vəsatəti əsasında" sözləri əlavə edilsin;

1.8. 257-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"İşin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqda və ya bu Məcəllənin 101.3-cü maddəsində nəzərdə tutulan ekspertin vəsatətinə baxılması zərurəti yarandıqda, işdə iştirak edən şəxslərin ərizəsi üzrə və ya məhkəmənin təşəbbüsü ilə iş üzrə icraat təzələnir.";

1.9. 418-ci maddə üzrə:

1.9.1. 418.1-ci maddədə "tətbiq olunmaması" sözlərindən sonra ", o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması" sözləri əlavə edilsin;

1.9.2. aşağıdakı məzmunda 418.6-cı maddə əlavə edilsin:

"418.6. Hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması qətnamənin və ya qərardadın ləğv edilməsinə yalnız o halda əsas olur ki, qətnamə və ya qərardad Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun maddi və ya prosessual hüquq normalarının tətbiqi ilə bağlı məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahlarına zidd olsun və həmin izahlarda təsbit olunmuş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqi zərurəti kifayət qədər əsaslandırılmasın.";

1.10. aşağıdakı məzmunda 418-1-ci maddə əlavə edilsin:

**"Maddə 418-1. Kasassiya instansiyası məhkəməsində icraat zamanı hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi**

418-1.1. Ali Məhkəmənin məhkəmə tərkibi işə kasassiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən

fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə və ya Ali Məhkəmənin məhkəmə tərkibi apellyasiya instansiyası məhkəməsinin bu Məcəllənin 418.6-cı maddəsində nəzərdə tutulmuş qətnamə və ya qərardadının əsaslandırılması ilə razılaşdıqda, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

418-1.2. Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə iclası Ali Məhkəmənin işə baxan məhkəmə tərkibinin əsaslandırılmış təqdimatı əsasında Ali Məhkəmənin sədri tərəfindən təyin edilir. Mübahisəli hüquqi məsələyə bu Məcəllənin 418-1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılarkən müvafiq təqdimatı verən məhkəmə tərkibinin daxil olduğu Ali Məhkəmənin kollegiyasının sədri iclasa sədrlik edir. İclas mülki və kommersiya kollegiyaların hakimlərinin azı üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir. Səslər bərabər olduğu hallarda sədrlik edənin səsi həlledici sayılır.

418-1.3. Ali Məhkəmənin mülki və kommersiya kollegiyaları mübahisəli hüquqi məsələyə birgə baxaraq ona dair hüquqi mövqeyini qəbul etdiyi qərardadda təsbit edir.

418-1.4. Ali Məhkəmənin işə baxan məhkəmə tərkibi, habelə eyni xarakterli məsələlərə baxarkən bütün digər məhkəmə tərkibləri bu Məcəllənin 418-1.3-cü maddəsində nəzərdə tutulmuş qərardadda müəyyən edilmiş hüquqi mövqeni rəhbər tutmalıdırlar.

418-1.5. Ali Məhkəmənin məhkəmə tərkibi eyni xarakterli məsələlərə baxarkən, bu Məcəllənin 418-1.3-cü maddəsində nəzərdə tutulmuş qərardadda müəyyən edilmiş hüquqi mövqedən fərqli qərar qəbul olunmasını zəruri hesab edirsə, məsələyə bu Məcəllənin 418-1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılır.";

1.11. 424.2.5-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 424.2.6-cı maddə əlavə edilsin:

"424.2.6. kasassiya instansiyası məhkəməsinin qərarı bu Məcəllənin 418.6-cı maddəsində nəzərdə tutulmuş hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyini pozmuşsa.".

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*
*N 1710-VQD*

---

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (II kitab), maddə 585; 2001, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddə 233, N 8, maddə 463; 2003, N 6, maddə 276; 2004, N 5, maddə 321, N 7,

maddə 505, N 8, maddə 598, N 10, maddə 761, N 11, maddə 890; 2005, N 1, maddə 4, N 4, maddə 278, N 6, maddə 462, N 8, maddə 686, N 10, maddə 874, N 12, maddə 1079; 2006, N 1, maddə 3, N 2, maddə 64, N 5, maddə 390, N 10, maddə 847, N 11, maddə 929, N 12, maddə 1032; 2007, N 2, maddələr 65, 68, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756, N 11, maddə 1049, N 12, maddə 1221; 2008, N 6, maddə 462, N 7, maddələr 606, 607, N 12, maddələr 1045, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 966; 2010, N 3, maddələr 171, 173, 178, N 7, maddə 593, N 12, maddə 1058; 2011, N 6, maddə 480, N 7, maddələr 589, 599; 2012, N 7, maddə 674, N 11, maddə 1062, N 12, maddə 1215; 2013, N 2, maddə 77, N 6, maddələr 616, 626, N 7, maddə 786, N 11, maddə 1265, N 12, maddə 1493; 2014, N 2, maddələr 90, 102, N 4, maddələr 328, 344, N 6, maddə 600, N 11, maddələr 1354, 1362; 2015, N 4, maddə 342, N 5, maddə 511, N 11, maddələr 1270, 1288; 2016, N 2 (II kitab), maddə 218, N 10, maddə 1607, N 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, N 5, maddə 751, N 12 (I kitab), maddələr 2232, 2267; 2018, N 5, maddələr 877, 882, N 7 (I kitab), maddə 1421; 2018, N 11, maddə 2235, N 12 (I kitab), maddə 2515; 2019, N 7, maddələr 1198, 1200) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 10.4-cü maddə ləğv edilsin;

1.2. aşağıdakı məzmunda 265.5-ci maddə əlavə edilsin:

"265.5. Şəxsin anlaqlı olub-olmaması ilə bağlı məhkəmə-psixiatrik ekspertizasının aparılması üçün ən azı üç məhkəmə ekspertindən ibarət tərkibdə komissiya təşkil edilir.";

1.3. 273.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"273.4. Tədqiqat üçün nümunənin götürülməsi məhkəmə ekspertizası fəaliyyətinin bir hissəsidirsə, bu hərəkət məhkəmə ekspertizasını aparan ekspert tərəfindən həyata keçirilir.";

1.4. 416-cı maddə üzrə:

1.4.1. 416.0.21-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 416.0.22-ci maddə əlavə edilsin:

"416.0.22. məhkəmə bu Məcəllənin 416.2-ci maddəsində nəzərdə tutulmuş hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulmasına yol verdikdə.";

1.4.2. 416.0-cı, 416.0.1 - 416.0.22-ci maddələr müvafiq olaraq 416.1-ci, 416.1.1 - 416.1.22-ci maddələr hesab edilsin və aşağıdakı məzmunda 416.2-ci maddə əlavə edilsin:

"416.2. Hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması hökm və ya digər qərarın ləğv edilməsinə və ya dəyişdirilməsinə yalnız o halda əsas olur ki, həmin hökm və ya digər qərar Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun maddi və ya prosessual hüquq normalarının tətbiqi ilə bağlı məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahlarına zidd olsun və həmin izahlarda təsbit olunmuş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqi zərurəti kifayət qədər əsaslandırılmasın.";

1.5. aşağıdakı məzmunda 419-1-ci maddə əlavə edilsin:

**"Maddə 419-1. Kasassiya instansiyası məhkəməsində icraat zamanı hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi**

419-1.1. Ali Məhkəmənin məhkəmə tərkibi işə kasassiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə və ya Ali Məhkəmənin məhkəmə tərkibi apellyasiya instansiyası məhkəməsinin bu Məcəllənin 416.2-ci maddəsində nəzərdə tutulmuş hökm və ya digər qərarının əsaslandırılması ilə razılaşdıqda, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin cinayət kollegiyasına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

419-1.2. Ali Məhkəmənin cinayət kollegiyasına daxil olan bütün hakimlərdən ibarət tərkibdə iclası Ali Məhkəmənin işə baxan məhkəmə tərkibinin əsaslandırılmış təqdimatı əsasında Ali Məhkəmənin sədri tərəfindən təyin edilir. Mübahisəli hüquqi məsələyə Ali Məhkəmənin cinayət kollegiyasına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılarkən iclasa Ali Məhkəmənin müvafiq kollegiyasının sədri sədrlik edir. Ali Məhkəmənin cinayət kollegiyasının iclası

həmin kollegiyanın hakimlərinin azı üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir. Səslər bərabər olduğu hallarda sədrlik edənin səsi həlledici sayılır.

419-1.3. Ali Məhkəmənin cinayət kollegiyası bütün hakimlərindən ibarət tərkibdə mübahisəli hüquqi məsələyə baxaraq ona dair hüquqi mövqeyini qəbul etdiyi qərarda təsbit edir.

419-1.4. Ali Məhkəmənin işə baxan məhkəmə tərkibi, habelə eyni xarakterli məsələlərə baxarkən bütün digər məhkəmə tərkibləri bu Məcəllənin 419-1.3-cü maddəsində nəzərdə tutulmuş qərarda müəyyən edilmiş hüquqi mövqeni rəhbər tutmalıdırlar.

419-1.5. Ali Məhkəmənin məhkəmə tərkibi eyni xarakterli məsələlərə baxarkən, bu Məcəllənin 419-1.3-cü maddəsində nəzərdə tutulmuş qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab edirsə, məsələyə bu Məcəllənin 419-1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılır.";

1.6. 421.1.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 421.1.4-cü maddə əlavə edilsin:

"421.1.4. kasassiya instansiyası məhkəməsinin qərarı bu Məcəllənin 416.2-ci maddəsində nəzərdə tutulmuş hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyini pozmuşsa.".

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*
*N 1711-VQD*

---

## Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N 10, maddə 762, N 12, maddə 973; 2010, N 7, maddə 587; 2011, N 6, maddə 485, N 7, maddə 593; 2012, N 5, maddə 410; 2013, N 1, maddə 16, N 11, maddə 1267; 2016, N 1, maddə 12; 2017, N 4, maddə 522, N 5, maddə 752, N11, maddə 1976; 2018, N 5, maddələr 855, 878, N 7 (1 kitab), maddə 1440; 2019, N 1, maddə 23, N 7, maddə 1199) aşağıdakı dəyişikliklər edilsin:

1.1. Aşağıdakı məzmunda 29-1-ci maddə əlavə edilsin:

**"Maddə 29-1. Məhkəmə ekspertizası**

İnzibati məhkəmə icraatında məhkəmə ekspertizası ilə bağlı məsələlərin tənzimlənməsində Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin müvafiq müddəaları tətbiq olunur.";

1.2. 98.2-98.6-cı maddələr ləğv edilsin;

1.3. aşağıdakı məzmunda 98-1-ci maddə əlavə edilsin:

**"Maddə 98-1. Kasassiya instansiyası məhkəməsində icraat zamanı hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi**

98-1.1. Ali Məhkəmənin məhkəmə tərkibi işə kasassiya qaydasında baxarkən Ali Məhkəmənin

digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə və ya Ali Məhkəmənin məhkəmə tərkibi apellyasiya instansiyası məhkəməsinin Ali Məhkəmənin Plenumunun məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahlarına zidd olan qərarında fərqli yanaşmanın tətbiqi zərurətinin əsaslandırılması ilə razılaşdıqda, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin inzibati kollegiyasına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

98-1.2. Ali Məhkəmənin inzibati kollegiyasına daxil olan bütün hakimlərdən ibarət tərkibdə iclası Ali Məhkəmənin işə baxan məhkəmə tərkibinin əsaslandırılmış təqdimatı əsasında Ali Məhkəmənin sədri tərəfindən təyin edilir. Mübahisəli hüquqi məsələyə Ali Məhkəmənin inzibati kollegiyasına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılarkən iclasa Ali Məhkəmənin müvafiq kollegiyasının sədri sədrlik edir. Ali Məhkəmənin inzibati kollegiyasının iclası həmin kollegiyanın hakimlərinin azı üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir. Səslər bərabər olduğu hallarda sədrlik edənin səsi həlledici sayılır.

98-1.3. Ali Məhkəmənin inzibati kollegiyası bütün hakimlərdən ibarət tərkibdə mübahisəli hüquqi məsələyə baxaraq ona dair hüquqi mövqeyini qəbul etdiyi qərardadda təsbit edir.

98-1.4. Ali Məhkəmənin işə baxan məhkəmə tərkibi, habelə eyni xarakterli məsələlərə baxarkən bütün digər məhkəmə tərkibləri bu Məcəllənin 98-1.3-cü maddəsində nəzərdə tutulmuş qərardadda müəyyən edilmiş hüquqi mövqeni rəhbər tutmalıdırlar.

98-1.5. Ali Məhkəmənin məhkəmə tərkibi eyni xarakterli məsələlərə baxarkən, bu Məcəllənin 98-1.3-cü maddəsində nəzərdə tutulmuş qərardadda müəyyən edilmiş hüquqi mövqedən fərqli qərar qəbul olunmasını zəruri hesab edirsə, məsələyə bu Məcəllənin 98-1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılır.".

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*
*N 1712-VQD*

---

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N

11, maddələr 1964, 1966, 1969, 1979, N 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N 1, maddə 19, N 2, maddələr 160, 162, 163, N 3, maddələr 383, 401, 404, N 4, maddə 646, N 5, maddələr 857, 860, 862, 876, 883, N 6, maddələr 1153, 1168, N 7 (I kitab), maddələr 1435, 1437, 1438, N 10, maddə 1963, N 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, N 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, N 1, maddələr 4, 6, 15, 18, 44, N 3, maddələr 374, 389, N 4, maddələr 579, 581, 587, 595, N 5, maddələr 791, 800, 803, 804, 813, N 6, maddələr 992, 998, 1007, N 7, maddə 1193, N 8, maddələr 1364, 1367, 1368, 1381 və 1383; Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1673-VQD, 1677-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 82.2-1 - 82.2-7-ci maddələr əlavə edilsin:

"82.2-1. Bu Məcəllənin 82.1-ci maddəsində nəzərdə tutulmuş məqsədlər üçün hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) onun baxdığı inzibati xətalar haqqında işlər üzrə barəsində inzibati icraat aparılan fiziki və ya hüquqi şəxsin, fiziki şəxsin müdafiəçisinin və ya qanuni nümayəndəsinin, hüquqi şəxsin nümayəndəsinin, prokurorun, zərər çəkmiş şəxsin və ya onun nümayəndəsinin vəsatəti ilə ekspertiza təyin edə bilər. Həmin şəxslərin vəsatəti rədd edildikdə hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.

82.2-2. Bu Məcəllənin 82.2-1-ci maddəsində nəzərdə tutulmuş şəxslər qarşılıqlı razılaşma əsasında konkret səlahiyyətli şəxsin ekspert təyin edilməsini hakimdən, səlahiyyətli orqandan (vəzifəli şəxsdən) xahiş edə bilərlər.

82.2-3. Bu Məcəllənin 82.2-1-ci maddəsində nəzərdə tutulmuş şəxslərin ekspertiza keçirilən zaman baxılmalı olan sualları hakimə, səlahiyyətli orqana (vəzifəli şəxsə) təqdim etmək hüququ vardır.

82.2-4. Ekspert rəyinin alınmasına dair sualların yekun məzmununu hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) müəyyən edir. Bu Məcəllənin 82.2-1-ci maddəsində nəzərdə tutulmuş şəxslərin təqdim etdiyi sualların rədd edilməsini hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) əsaslandırmağa borcludur.

82.2-5. Bu Məcəllənin 82.2-1-ci maddəsində nəzərdə tutulmuş şəxslər ekspert tədqiqatının obyekti kimi əşya və sənədləri təqdim etmək hüququna malikdirlər. Hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) təqdim edilmiş əşya və sənədləri ekspert tədqiqatının obyekti kimi qəbul etmədikdə bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.

82.2-6. Ekspertiza bu Məcəllənin müddəalarında nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə icraatın iştirakçılarının hüquqlarına riayət olunmaqla keçirilir. Hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) və bu Məcəllənin 82.2-1-ci maddəsində nəzərdə tutulmuş şəxslərin ekspertizanın keçirilməsinin gedişi haqqında məlumat əldə etmək hüququ vardır.

82.2-7. Ekspertiza tədqiqatın xarakterindən asılı olaraq, həmçinin tədqiqat aparmaq üçün materialları məhkəməyə, səlahiyyətli orqana (vəzifəli şəxsə) gətirmək mümkün deyilsə, yaxud çətinlik törədirsə, məhkəmədə, səlahiyyətli orqanda, yaxud kənar yerdə keçirilə bilər. Bu Məcəllənin 82.2-1-ci maddəsində nəzərdə tutulmuş şəxslərin kənar yerdə keçirilən ekspertizada iştirakının ekspertlərin normal işinə maneçilik törədə bilməsi halları istisna olmaqla, onlar ekspertizanın keçirilməsində iştirak edə bilərlər. Bu zaman bu Məcəllənin 82.2-1-ci maddəsində nəzərdə tutulmuş şəxslər tətbiq edilmiş tədqiqat üsullarının mahiyyətinin və alınmış nəticələrin izahını ekspertdən tələb edə və ekspertə izahlar verə bilərlər.";

1.2. 82.5-ci maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Ekspert ekspertiza təyin edilməsi haqqında hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərardadı məhkəmə ekspertizası idarəsinə daxil olduğu vaxtdan 10 gündən gec olmayaraq yazılı formada rəy verir, onu öz imzası ilə təsdiq edir və dərhal məhkəməyə, səlahiyyətli orqana (vəzifəli şəxsə) göndərir.";

1.3. aşağıdakı məzmunda 82.6 - 82.8 və 82-1-ci maddələr əlavə edilsin:

"82.6. Ekspertizanın aparılmasını bu Məcəllənin 82.5-ci maddəsində göstərilən müddətdə təmin etmək mümkün olmadıqda,

məhkəmə ekspertizası idarəsinin rəhbəri tərəfindən əsaslandırılmış səbəblər göstərilməklə bu barədə hakimə, səlahiyyətli orqana (vəzifəli şəxsə) məlumat verilir. Bu halda tədqiqatların mürəkkəblik dərəcəsi nəzərə alınmaqla ekspertizanın aparılması müddəti hakimlə, səlahiyyətli orqanla (vəzifəli şəxslə) yazılı formada razılaşdırılır.

82.7. Ekspert rəy verilməsi üçün əlavə tədqiqat materiallarının təqdim edilməsinə zərurət olduğunu müəyyən etdikdə ekspertiza təyin edilməsi haqqında qərardadın məhkəmə ekspertizası idarəsinə daxil olduğu vaxtdan 5 gündən gec olmayaraq bu barədə hakimə, səlahiyyətli orqana (vəzifəli şəxsə) vəsatət göndərir. Vəsatətdə tələb olunan tədqiqat materiallarının dəqiq və tam siyahısı göstərilir.

82.8. Hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən ekspertin həmin vəsatətinə 3 gün müddətində baxılır və əlavə tədqiqat materiallarının əldə edilməsi müəyyən vaxt tələb etdikdə məhkəmə ekspertizası idarəsinin rəhbərinə məlumat verilməklə bu Məcəllənin 82.5-ci maddəsində nəzərdə tutulan müddət uzadılır.

**Maddə 82-1. Şəxslərin təşəbbüsü ilə ekspertizanın aparılması**

82-1.1. İnzibati xətalar haqqında işlər üzrə barəsində inzibati icraat aparılan fiziki və ya hüquqi şəxs, fiziki şəxsin müdafiəçisi və ya qanuni nümayəndəsi, hüquqi şəxsin nümayəndəsi, zərər çəkmiş şəxs və ya onun nümayəndəsi onların mənafelərinə xidmət edə biləcək halların müəyyən edilməsi üçün öz təşəbbüsləri ilə ekspertizanın aparılmasını sifariş vermək üçün özəl məhkəmə ekspertinə və ya məhkəmə ekspertizası idarəsinə rəsmi müraciət etmək hüququna malikdirlər.

82-1.2. Barəsində inzibati icraat aparılan fiziki və ya hüquqi şəxsin, fiziki şəxsin müdafiəçisinin və ya qanuni nümayəndəsinin, hüquqi şəxsin nümayəndəsinin, zərər çəkmiş şəxsin və ya onun nümayəndəsinin sifarişi ilə ekspertiza həmin şəxslə özəl məhkəmə eksperti və ya məhkəmə ekspertizası idarəsinin rəhbəri arasında bağlanan müqavilə əsasında ekspertizanı sifariş edən şəxsin hesabına həyata keçirilir. Ekspertizanı sifariş etmiş şəxs ekspertə suallar siyahısını və tədqiqat üçün obyektləri verir.

82-1.3. Ekspert müqavilədə göstərilən müddətdə yazılı formada rəy verir. Ekspertiza aparmış ekspertlərin təqdim edilmiş rəyləri hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən materiallara əlavə edilir və digər sübutlarla yanaşı qiymətləndirilir.".

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*
*N 1713-VQD*

---

## "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan

Respublikasının Qanunvericilik Toplusu, 2005, N 12, maddə 1084; 2006, N 12, maddə 1031; 2008, N 6, maddə 462; 2011, N 7, maddə 592; 2014, N 12, maddə 1516; 2016, N 4, maddə 643; 2018, N 12 (I kitab), maddələr 2470, 2530; 2019, N 1, maddələr 5, 21, N 2, maddə 184) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 41.4-cü maddədə "qərarına əsasən Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş müvafiq qurumların ekspertləri" sözləri "qərarı və ya maraqlı şəxslərlə bağlanan müqavilə əsasında məhkəmə ekspertizası idarələrinin ekspertləri və ya özəl məhkəmə ekspertləri" sözləri ilə əvəz edilsin;

1.2. 41.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"41.5. Azərbaycan Respublikasının qanunvericiliyində başqa müddət nəzərdə tutulmamışdırsa, ekspert ekspertiza təyin edilməsi haqqında inzibati orqanın qərarı məhkəmə ekspertizası idarəsinə daxil olduğu vaxtdan 30 gündən gec olmayaraq yazılı formada rəy verir, onu öz imzası ilə təsdiq edir və dərhal inzibati orqana göndərir.";

1.3. aşağıdakı məzmunda 41.5-1-ci maddə əlavə edilsin:

"41.5-1. Ekspertizanın aparılmasını bu Qanunun 41.5-ci maddəsində göstərilən müddətdə təmin etmək mümkün olmadıqda, məhkəmə ekspertizası idarəsinin rəhbəri tərəfindən əsaslandırılmış səbəblər göstərilməklə bu barədə inzibati orqana məlumat verilir. Bu halda inzibati orqan tədqiqatların mürəkkəblik dərəcəsini nəzərə almaqla ekspertizanın aparılması müddətinin uzadılması barədə qərar qəbul edir.";

1.4. aşağıdakı məzmunda 41.8-ci maddə əlavə edilsin:

"41.8. Maraqlı şəxslər onların mənafelərinə xidmət edə biləcək halların müəyyən edilməsi məqsədilə öz təşəbbüsləri ilə ekspertizanın aparılmasını sifariş vermək üçün məhkəmə ekspertizası idarəsinə və ya özəl məhkəmə ekspertlərinə rəsmi müraciət etmək hüququna malikdirlər.

Maraqlı şəxsin sifarişi ilə ekspertiza həmin şəxslə məhkəmə ekspertizası idarəsinin rəhbəri və ya özəl məhkəmə eksperti arasında bağlanan müqavilə əsasında ekspertizanı sifariş edən şəxsin hesabına həyata keçirilir. Ekspertizanı sifariş etmiş şəxs ekspertə suallar siyahısını və tədqiqat üçün obyektləri verir.

Ekspert ekspertizanı sifariş etmiş şəxsə müqavilədə göstərilən müddətdə yazılı rəy verir. Maraqlı şəxsin sifarişi ilə aparılmış ekspertiza nəticəsində verilmiş ekspert rəyi inzibati orqan tərəfindən materiallara əlavə edilir və digər sübutlarla yanaşı qiymətləndirilir.".

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*
*N 1714-VQD*

---

## "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununda (Azər-

baycan Respublikasının Qanunvericilik Toplusu, 2005, N 1, maddə 8, N 8, maddə 686; 2006, N 1, maddə 4; 2007, N 4, maddə 321; 2010, N 7, maddə 596; 2011, N 2, maddə 71, N 6, maddə 484; 2012, N 12, maddə 1228; 2013, N 12, maddə 1467; 2014, N 7, maddə 783; 2015, N 2, maddə 99, N 4, maddə 347, N 11, maddə 1287; 2016, N 12, maddə 2032; 2017, N 6, maddə 1044, N 12, maddə 2188; 2018, N 7 (I kitab), maddə 1443) aşağıdakı dəyişikliklər edilsin:

1.1. Aşağıdakı məzmunda 11.0.3-1-ci maddə əlavə edilsin:

"11.0.3-1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 79-1-ci maddəsinə uyğun olaraq, məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması qaydasını Azərbaycan Respublikası Ali Məhkəməsinin təklifləri əsasında müəyyən edir;";

1.2. 13.3-cü maddənin ikinci cümləsində "həmçinin" sözündən sonra "məhkəmələrin fəaliyyətinin monitorinqinin nəticələri," sözləri əlavə edilsin.

Maddə 2. Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*
*N 1715-VQD*

---

## "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 4, maddə 632, N 12, maddələr 2017, 2036; 2017, N 4, maddə 520, N 5, maddə 743; 2018, N 6, maddə 1187; 2019, N 1, maddə 28, N 5, maddə 797, N 6, maddə 986, N 8, maddə 1360) 3 nömrəli əlavə - "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı"nın 77-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"77. şəxsin sahibkarlıq fəaliyyətini həyata keçirməsi üçün müəyyən sahədə xüsusi biliklərə malik olduğunu təsdiq edən sənəd (özəl məhkəmə ekspertinin şəhadətnaməsi, auditor adı almaq üçün verilən ixtisas imtahanının nəticələrini təsdiq edən sənəd);".

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*
*N 1716-VQD*